

**Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**
**Ümummilli Lider HEYDƏR ƏLİYEV**

BDU

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti 31 may 2022-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**Tarix fakültəsində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş tədbir**
➔Səh.3

**"Heydər Əliyev Azərbaycan dili və ədəbiyyatının hamisi kimi"**
➔Səh.8

**"Azərbaycan mediası yeni müstəvidə" mövzusunda Elmi konfrans keçirilib**
➔Səh.11

**Almaniyanın Mannheim Cərrahlıq Klinikasının direktoru BDU-da**
➔Səh.12

**Pekin Xarici Dillər Universitetinin kafedra müdiri BDU-da elmi seminar keçib**
➔Səh.12

**Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyevin BDU tələbələri ilə görüşü**
➔Səh.14

**BDU tələbələri "Bakı Marafonu-2022"də iştirak ediblər**
➔Səh.15

**Azad Şuşada əsrə bərabər bir gün**
➔Səh.16



**Azərbaycan elmini və təhsilini intibaha qovuşduran lider**
➔Səh.2



**BDU və Konya Texniki Universiteti arasında əməkdaşlıq imkanları müzakirə edilib**
➔Səh.3



**Hüquq fakültəsində Ümummilli liderin anadan olmasının 99-cu ildönümü qeyd olunub**
➔Səh.4



**BDU-nun nəzdində "Gənc istedadlar" liseyində "Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda konfrans**
➔Səh.5



**Elmi Şuranın növbəti iclası**
➔Səh.8



## BDU-da “Dahi şəxsiyyət və müdrik lider” mövzusunda Respublika elmi konfransı keçirilib

***Mayın 10-da Bakı Dövlət Universitetində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş “Dahi şəxsiyyət və müdrik lider” mövzusunda Respublika elmi konfransı keçirilib.***

Əvvəlcə Universitet kollektivi Fəxri xiyabanda Ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib, məzarı önünə əklil qoyub, gül dəstələri düzüb.

Daha sonra konfrans iştirakçıları BDU-da Ulu Öndərin büstü önünə gül dəstələri qoyublar.

Konfransın plenar iclasını giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev bildirib ki, xalqımızın Ümummilli lideri Heydər Əliyev bütün mənalı ömrünü doğma xalqının xoşbəxt gələcəyinə, ölkəsinin tərəqqisi, dövlətinin möhkəmlənməsi və rifahına həsr edib. Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi bütün dövrlər möhtəşəm quruculuq və tərəqqi, davamlı və hərtərəfli inkişaf mərhələləri kimi şanlı tariximizin qızıl səhifələridir: “Həm sovet dönəmində, həm də dövlət müstəqilliyimizin ilk illərində dahi şəxsiyyətin ölkəmizə rəhbərlik etdiyi dövrlər ölkəmizin və xalqımızın müqəddəratının tənəzzüldən tərəqqiyə doğru dəyişdiyi dövrlərdir. Məhz bu dövrlərdə Ulu öndərimizin dövlətçilik fəlsəfəsinin əsasını təşkil edən azərbaycançılıq məfkurəsi formalaşıb. Ulu öndərin respublikaya böyük uzaqgörənliklə və müdrikcəsinə rəhbərlik etdiyi 1969-1982-ci illər Azərbaycanda quruculuq salnaməsinin parlaq dövrü kimi tarixə düşüb. Heç kəsə sirr deyil ki, XX əsrin sonlarına yaxın dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan xalqı üzləşdiyi çətinlikləri, başına gətirilən bəlaları dahi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə dəf etdi. 1990-cı ilin 20 Yanvar faciəsindən sonra o, ilk şəxs idi ki, sovet rəhbərliyinin addımını pislədi. Qanlı Yanvar faciəsini törədənləri ittiham etdi, Kommunist Partiyasının sıralarını tərk etdi”.

Rektor qeyd edib ki, Ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə, ölkəmiz üçün həlledici bir məqamda hakimiyyətə gəlişi Azərbaycanın müasir tarixinin şərəfli səhifələrinin yazılmasına və dövlətimizin müstəqilliyinin əbədiliyinə hərtərəfli zəmin yaratdı. Heydər Əliyevin siyasi müdrikliyi, iradəsi və qətiyyəti, mükəmməl idarəçilik qabiliyyəti sayəsində dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan keçid dövrünün çətinliklərini uğurla arxada qoyub, dirçəliş mərhələsinə daxil oldu. Balanslaşdırılmış və milli mənafeyə əsaslanan dövlət siyasəti, ictimai-siyasi sabitliyin dayanıqlılığı, iqtisadi qüdrət və güclü sənaye potensialı, elmi-texniki tərəqqi, təhsil və səhiyyənin inkişafı, müasir ordu quruculuğu, xalqın rifahının və həyat tərzinin durmadan yaxşılaşdırılması, milli irsin qorunması və milli-mənəvi dəyərlərin möhkəmləndirilməsi Ümummilli liderin başlıca strateji hədəflərinə çevrildi: “2003-cü ildən bəri müstəqil dövlətimizin qurucusu və xalqımızın xilaskarı, dahi şəxsiyyət Heydər Əliyev cismən yanımızda olmasa da, onun ideyaları və böyük dühası əbədiyaşardır.

*(Ardı 4-cü səhifədə)*

## BDU-da Rəqəmsal Araşdırmalar Laboratoriyası yaradılıb

➔Səh.3

# Azərbaycan elmini və təhsilini intibaha qovuşduran lider

***Müstəqil Azərbaycan dövlətinin memarı, əziz və unudulmaz xatirəsi hər zaman bizimlə olan Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasından 99 il ötür. Ulu öndərimizin əbədiyaşar mənəvi ömrünün 99-cu zirvəsindən ötən illərə baxdıqca, bir daha şahid oluruq ki, XX əsrin 70-ci illərindən başlayaraq ölkəmizin əldə etdiyi bütün nailiyyətlərin təməlində məhz Heydər Əliyev fenomeni, bu nadir şəxsiyyətin parlaq fəaliyyəti dayanır.***




***Ulu öndərin bütün nəsillərə örnək olan ömür yolunun hər bir səhifəsi, hər bir anı xalqımızın rifahına, dövlətimizin və dövlətçiliyimizin hərtərəfli inkişafına həsr olunub. Müdrik rəhbərimizin həyatının məqsədi, başlıca amalı doğma xalqının xoşbəxtliyi idi. Dahi şəxsiyyət heç bir ölçüyə sığmayan belə mənəvi keyfiyyətlərinə görə qədirbilən xalqımız tərəfindən, haqlı olaraq, Ümummilli lider adlandırılır.***

Ulu öndərin bütün nəsillərə örnək olan ömür yolunun hər bir səhifəsi, hər bir anı xalqımızın rifahına, dövlətimizin və dövlətçiliyimizin hərtərəfli inkişafına həsr olunub. Müdrik rəhbərimizin həyatının məqsədi, başlıca amalı doğma xalqının xoşbəxtliyi idi. Dahi şəxsiyyət heç bir ölçüyə sığmayan belə mənəvi keyfiyyətlərinə görə qədirbilən xalqımız tərəfindən, haqlı olaraq, Ümummilli lider adlandırılır.

Dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyev hələ ötən əsrin 70-ci illərindən təkcə gördüyü işlərlə deyil, tarixi yaradan şəxsiyyət kimi XX əsrin əvvəllərində dövlət müstəqilliyini itirmiş, ağır məhrumiyyətlərə, ümidsizliyə düçar olmuş xalqımızın suverenlik arzularının yenidən boy atmasında nəhayətsiz xidmətlər göstərirdi. Sovet hakimiyyətinin ən kəskin dövrlərində Ulu öndər Azərbaycanın həyatında yeni mərhələnin təməlini qoydu, müstəqil dövlət quruculuğuna gedən yolun strategiyasını müəyyənləşdirdi.

Sovet imperiyasının amansız təqib və təzyiqlərinə baxmayaraq, ötən əsrin 70–80-ci illərində Ulu öndər Heydər Əliyev xalqmızın milli ruhunun dirçəlməsi, tarixi yaddaşımızın bərpası, soykökümüzə qayıdışla bağlı əvəzsiz xidmətlər göstərdi. Məhz həmin illərdə bu dahi şəxsiyyətin səyləri nəticəsində Azərbaycan Sovet İttifaqının geridə qalmış kənd təsərrüfatı respublikasından sənayenin inkişaf etdiyi bir respublikaya çevrildi. Qısa zaman ərzində Azərbaycan iqtisadi artım sürətinə görə orta ittifaq səviyyəsini ötüb keçdi. 1969–1982-ci illərdə respublikada milli gəlir 2,5 dəfə, sənaye məhsulları istehsalının real həcmi 2,7 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 2,3 dəfə artdı, 173-dən çox yeni sənaye müəssisəsi tikilib istifadəyə verildi, mövcud müəssisələr yenidən qurularaq genişləndirildi və yeni istehsal sahələri istismara verildi.

Xalqımızın dahi oğlunun hərtərəfli diqqət və qayğısı ilə əhatə olunan sahələrdən biri də hər bir xalqın inkişafının məhək daşı hesab olunan elm və təhsil sahələri idi. Məhz ötən əsrin 70-ci illərindən başlayaraq respublikada yüzlərlə yeni məktəb istifadəyə verildi, ali təhsil müəssisələrinin sayı və onların qəbul planları artırıldı, tələbə qəbulunda şəffaflıq və ədalətlilik təmin olundu.

Ulu öndər ötən əsrin 70–80-ci illərində Azərbaycanda təhsilin məzmununun, keyfiyyətinin yüksəldilməsi, elm və təhsil mühitinin sağlamlaşdırılması ilə paralel olaraq bu sahənin öz dövrü üçün ən müasir maddi-texniki baza ilə təmin olunmasına da nail olmuşdu. Bunun nəticəsində elmi-tədqiqat institutlarında və ali təhsil müəssisələrində o dövrün müasir avadanlıqlarla, cihazlara təchiz edilmiş elmi-tədqiqat laboratoriyaları və mərkəzləri ölkədə fundamental elmi istiqamətlərin inkişafında müstəsna rol oynadılar.

Bütün bu islahatların məntiqi nəticəsi kimi cəmiyyətdə elm sahəsinə böyük maraq formalaşdı, istedadlı gənclərin elmə üz tutmasına stimul yarandı. Elmi-tədqiqat institutlarında və ali məktəblərdə elmlər namizədlərinin və elmlər doktorlarının sayında əhəmiyyətli artım müşahidə olunmağa başlandı. Müqayisə üçün qeyd edək ki, 1969-cu ildə respublikada 329 elmlər doktoru, 3 min elmlər namizədi var idisə, 1980-ci illərin əvvəllərində müvafiq olaraq 900-dən çox elmlər doktoru və 8 mindən çox elmlər namizədi qeydə alınmışdı. Bu faktın özü elmi kadr hazırlığının Ulu öndərimiz üçün nə dərəcədə prioritet istiqamət olduğunun bariz və parlaq nümunəsidir.

1970–1980-ci illərdə respublika rəhbərinin şəxsi nüfuzu və yüksək təşkilatçılıq məharəti hesabına yüzlərlə azərbaycanlı gənc keçmiş ittifaqın nümunəvi elm və təhsil ocaqlarına göndərildi. Statistikaya nəzər salsaq, görərik ki, həmin dövrdə keçmiş SSRİ-nin 50-dən çox böyük şəhərində yerləşən 170 qabaqcıl ali təhsil və elm müəssisəsinə 15 mindən artıq istedadlı gənc soydaşımız təhsil almağa göndərilmişdi. Bu, həmin dövrdə misli görünməmiş və digər ittifaq respublikaları ilə müqayisədə olduqca böyük göstərici idi. Məhz həmin gənclər ən müxtəlif, xüsusilə zəruri peşələrə yiyələnərək sonradan müstəqil Azərbaycanda elm və təhsilin, sənayenin inkişafına böyük töhfələr verdilər.

Ulu öndərin böyük səyləri nəticəsində çarizm dövründə hərbi xidmətə aparılmayan, sovet dövründə isə əsasən tikinti taborlarında xidmət keçməyə məhkum edilən və beləliklə, məqsədli şəkildə hərb sənətindən uzaqlaşdırılan azərbaycanlı gənclərin hərb sənətinə yiyələnməsi üçün, ən əsası – gələcəkdə müstəqil Azərbaycanın ordusunu peşəkar, milli ruhlu, vətənpərvər zabitlərlə təmin etmək məqsədilə Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradıldı. Bu hərbi məktəbdə yetişən vətənpərvər zabitlərin müstəqil Azərbaycan Ordusunun zabit korpusunun formalaşmasındakı müstəsna rolunu, Qarabağ savaşındakı əvəzsiz xidmətlərini göz önünə gətirəndə onun böyük çətinliklərdən, maneələrdən keçərək yaradılması barədə müdrik qərarın tarixi əhəmiyyətini daha aydın təsəvvür etmək olur. Məhz həmin hərbi məktəbdə yetişmiş, formalaşmış zabitlər müstəqil Azərbaycan Ordusunun qurucuları oldular. Bu ixtisaslı hərbçilər nəsli Birinci Qarabağ müharibəsində və tarixi zəfərlə başa çatan Vətən müharibəsində öz peşəkarlıqlarını, vətənpərvərliklərini nümayiş etdirdilər, qəhrəmanlıqlar göstərdilər.

1982-ci ildə Sov. İKP MK Siyasi Bürosuna üzv seçilən, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olunan Heydər Əliyev Sovet İttifaqında siyasi hakimiyyətin zirvəsinə yüksəlməklə, bütün imkanlardan yararlanaraq doğma xalqının tərəqqisinə çalışdı. Xalqımızın qeyrətli oğlu Azərbaycanın iqtisadi, sosial, mədəni inkişafı üçün misilsiz işlər gördü, ölkəmizdə elmin və təhsilin inkişafına böyük töhfələr verdi. Onu da xüsusi vurğulamaq lazımdır ki, ulu öndərin bütün sahələrdə olduğu kimi, elm və təhsil sahəsindəki yüksək idarəçilik məharətinə və müstəsna təşkilatçılığına görə ötən əsrin 80-ci illərinin əvvəlində, keçmiş SSRİ-də təhsil islahatlarının həyata keçirilməsi Nazirlər Soveti sədrinin birinci müavini kimi məhz ona tapşırılmışdı.

Hər zaman səmimiliyi və eyni zamanda cəsarəti ilə seçilən nadir siyasətçi Heydər Əliyev 1987-ci ildə Sovet İttifaqı rəhbərliyinin və şəxsən M.Qorbaçovun yanlış siyasətinə etiraz olaraq tutduğu bütün vəzifələrdən istefa verdi. Lakin xalqına güvənən böyük şəxsiyyət bir an belə xalqının taleyi ilə bağlı məsələlərdən kənarda qalmadı. Doğma Vətəninə tükənməz sevgisi, ali ehtiramı onu daha inamla, əzmlə çalışmağa sövq etdi. Müdrik rəhbərin Moskvadan Azərbaycana qayıdaraq, doğulub-böyüdüyü Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi xalqımızın taleyində yeni mərhələnin başlanğıcı oldu.

Məhz bu dövrdə böyük rəhbərin məqsədyönlü və ardıcıl siyasəti nəticəsində blokada şəraitində yaşayan Naxçıvan sözün əsl mənasında xilas edildi. Ulu öndər Naxçıvana rəhbərlik etdiyi dövrdə – ölkəmiz hələ müstəqilliyini əldə etməmişdən əvvəl böyük cəsarət nümayiş etdirərək Xalq Cümhuriyyətinin dövlət atributlarını muxtar respublikanın rəsmi rəmzləri kimi təsdiq etdi. Bu cəsarətli addım müstəqilliyimizə gedən yolda dönüş nöqtəsi idi. 1992-ci ildə Naxçıvanda sonradan, bütünlüklə, regionun ən böyük və monolit siyasi partiyasına çevriləcək Yeni Azərbaycan Partiyasını yaratmaqla ümummilli lider Heydər Əliyev ölkəmizin o illərdəki hərc-mərclik, özbaşınalıq axınındakı səbatsız, dağınıq siyasi həyatına yeni siyasi sistem gətirdi.

1993-cü ildə xalqın çağırışına səs verən Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdığı 15 iyun tarixi Azərbaycanın müasir dövrünün dönüş nöqtəsi oldu. Məhz bu qayıdış Azərbaycanı bir dövlət kimi yox olmaq təhlükəsindən birdəfəlik xilas etdi. Bu mənada, qədirbilən xalqımız haqlı olaraq həmin tarixi hər il Milli Qurtuluş Günü kimi qeyd edir. Ümummilli lider Heydər Əliyev Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra ölkəmizdə iqtisadiyyatın və sənayenin bütün sahələri sürətlə inkişaf etdi, əhalinin rifahı yaxşılaşdı, ölkəmiz diplomatik cəbhədə böyük uğurlar qazandı.

Ulu öndərimizin rəhbərliyi ilə peşəkar ordunun formalaşdırılması, silahlı qüvvələrin vahid komandanlıq altında səfərbər olunması, cəbhədə uğurlu döyüş əməliyyatlarının aparılması düşməni atəşkəs sazişini imzalamağa məcbur etdi. Atəşkəs dövründə peşəkar ordu quruculuğu, diplomatik savaşda qazanılmış uğurlar və ölkəmizin iqtisadi cəhətdən inkişafı Azərbaycanın mövqelərini günbəgün möhkəmləndirdi. 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi”nin imzalanması və digər iqtisadi layihələrlə dövlətimizin rifah halı yüksəldi.

90-cı illərin gərgin ictimai-siyasi şəraitinə baxmayaraq, elm və təhsil sahəsi Ulu öndər Heydər Əliyevin yüksək diqqət və qayğısı ilə əhatə olunurdu. “Təhsil millətin gələcəyidir” – şüarını irəli sürən dövlət başçısı yenidən hakimiyyətə qayıtdıqdan sonra mütəmadi olaraq alimlərlə, pedaqoqlarla görüşür, ölkənin gələcək quruculuğu ilə bağlı səmərəli müzakirələr aparırdı. Bütün bunların nəticəsində elm və təhsil sahəsində əsaslı islahatlar həyata keçirildi, respublikamızın beynəlxalq nüfuzu yüksəldi, ölkənin elm və təhsil potensialı gücləndi.

Ölkə rəhbəri tərəfindən 1998-ci ildə “Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında” Sərəncam imzalandı, bu sahənin hüquqi bazası yaradıldı, konseptual əsasları formalaşdırıldı. Ölkəmizdə akademik elmi mühitin, təhsil sferasının müasir dünyada təsdiqini tapmış beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində əməli addımlar atıldı.

Dünya şöhrətli Ulu öndər Heydər Əliyev məzunu olduğu, qürurla “Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam” kəlamı ilə adını, şöhrətini zirvələrə ucaltdığı, “Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı” adlandırdığı, elmi-mizin və təhsilimizin flaqmanı olan Bakı Dövlət Universitetinə (BDU) hər zaman qayğı ilə yanaşmışdır. Universitetdə təhsilin inkişafı, elmi mühitin formalaşdırılması hər zaman ulu öndərin diqqət mərkəzində olmuşdur.

Azərbaycan rəhbəri Heydər Əliyev istər sovet dövründə, istərsə də müstəqillik illərində universitetin kadr potensialının, maddi-texniki bazasının güclənməsinə əvəzsiz töhfələr vermişdir. Ümummilli liderin təhsil illəri və sonralar bu təhsil ocağı ilə sıx əlaqələri BDU-nun şanlı tarixinin bütöv bir mərhələsini təşkil edir. Bu tarixi mərhələnin hər bir anı universitetimizin qədirbilən kollektivi və milli ruhlu tələbələri üçün doğmadır, əzizdir. Bu gün fəxrlə söyləyirik ki, BDU-nun ən böyük, dünya şöhrətli məzunu ulu öndərimiz Heydər Əliyevdir.

Ulu öndərin ötən əsrin 70-ci illərindən müntəzəm qayğısı ilə əhatə olunan doğma universitetimiz son 19 ildə isə Prezident İlham Əliyevin diqqət mərkəzində olmuşdur. Möhtərəm Prezidentimizin sərəncamı ilə 2019-cu ildə Bakı Dövlət Universitetinin 100 illik yubileyinin təntənəli şəkildə qeyd edilməsi, alimlərimizin əməyinə yüksək qiymətin verilməsi, onların ali dövlət mükafatları ilə təltif edilməsi universitetin 100 illik tarixinin səhifələrinə qızıl hərflərlə yazılmışdır.

Universitet kollektivi həmişə olduğu kimi, bu gün də Ulu öndərin siyasətini, cənab Prezidentimizin müəyyənləşdirdiyi prioritetləri rəhbər tutaraq öz fəaliyyətini davam etdirir və ölkəmizin inkişafı naminə əzmlə çalışır. Universitetin çoxminli kollektivi və tələbələri Vətən müharibəsində əldə etdiyimiz tarixi zəfərdən ilhamlanaraq Azərbaycanda elmin, təhsilin inkişafına, vətəndaş cəmiyyəti quruculuğuna öz töhfələrini verməkdə davam edir.

Kollektivimiz, tələbələrimiz respublikamızda dövlətçiliyin daha da möhkəmləndirilməsində, Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf doktrinasının parlaq şəkildə həyata keçirilməsində öz missiyasını yerinə yetirir, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatə olunaraq elmimizə və təhsilimizə xidmət göstərməkdən şərəf duyur.

Bu gün Ümummilli liderimiz Heydər Əliyevin bütün arzuları, ideyaları Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilir. Əminliklə deyə bilərik ki, anadan olmasının 99-cu ildönümündə Ulu öndərin ruhu şaddır. Çünki müstəqil Azərbaycan dövlətinin qurucusunun ən böyük arzusu gerçəkləşib.

Müqəddəs ata vəsiyyətini şərəflə yerinə yetirən möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyev müzəffər ordusu, müzəffər xalqı ilə birlikdə 44 günlük Vətən müharibəsində tarixi qələbə qazanıb. Tarixi zəfərdən keçən qısa dövr ərzində azad Qarabağımızda misilsiz quruculuq işləri həyata keçirilir, düşmənin xarabaya çevirdiyi torpaqlarımıza yeni ruh, yeni nəfəs gəlir.

***Elçin BABAYEV,***
*Bakı Dövlət Universitetinin rektoru*

*“Xalq qəzeti”,*
*11.05.2022*

# “Geologiya: problemlər, perspektivlər” mövzusunda Respublika konfransı

***Mayın 10-da Geologiya fakültəsində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş “Geologiya: problemlər, perspektivlər” mövzusunda Respublika konfransı keçirilib.***



Konfrans Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov bildirib ki, son dövrlər Universitetdə elmi fəaliyyətin təşkili istiqamətində mühüm addımlar atılır. Xüsusilə silsilə konfranslar elmi potensialın daha da artmasına kömək edir. Mais Süleymanov konfransın işinə uğurlar arzulayıb.

Geologiya fakültəsinin dekanı Mamoy Mansurov konfransın əsas elmi istiqamətləri və bölmələri haqqında məlumat verib.

Fakültənin Faydalı qazıntılar kafedrasının müdiri, akademik Vasif Babazadə çıxış edərək konfransda müzakirə olunan mövzuların elmi əhəmiyyətindən bəhs edib.

Konfransın plenar iclasında Kristalloqrafiya, mineralogiya və geokimya kafedrasının dosenti Kərim Rəhimov "Kaolin gillərinin hidrotermal çevrilməsi ilə alınan JWB tip aşağı silisiumlu seolitlərin quruluş tədqiqatları" mövzusunda məruzəsini təqdim edib. Qeyd edib ki, seolit termini ilk dəfə 1756-cı ildə İsveçrə mineroloqu Kronsted tərəfindən işlədilib. Stilbit mineralının qızdırılması zamanı bu mineral tərəfindən adsorbsiya edilmiş suyun buxar şəklində ayrıldığını bildirib. Buna görə həmin material yunancadan tərcümədə “qaynayan daş” mənasını verən seolit adlandırılıb. Seolitlər təbiətdə geniş yayılıb və sənaye miqyasında istehsal edilir. 2018-ci ilin məlumatlarına görə, 253 seolit karkası identifikasiya edilib, onlardan 40-a qədəri təbii şəkildə rast gəlinir. Hər bir seolit quruluşu Beynəlxalq Seolit Assosiasiyasının quruluş komissiyası tərəfindən öyrənilir və ona üç hərfdən ibarət müxtəlif kod verilir. Seolitlər məsaməli quruluşlara malikdirlər və bu məsamələrdə Na, K, Ca, Mg kimi kationlar paylana bilir. Təbiətdə geniş yayılmış seolit mineralı analsim, şabazit, klinoptilolit, heylandit, natralit, fillipsit və stilbitdir. Kation əvəz olunmuş seolitlər müxtəlif turşuluğa malikdir və müxtəlif reaksiyaların gedişini kataliz edirlər.

Daha sonra Ümumi və tarixi geologiya kafedrasının müdiri, professor Nazim İmamverdiyev "Kiçik Qafqazın mərkəzi hissəsinin Üst Pliosen-Dördüncü dövr bimodal maqmatik assosiasiyanın əmələgəlmə problemi" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə Alp-Himalay qırışıqlıq qurşağının Təbaşirin sonu - Paleogenin əvvəlində Tetis okeanının bağlanması ilə əlaqədar olaraq öz inkişafını kontinental plitələrin kolliziya zonası kimi davam etdirməsi göstərilib. Həmin vaxt Avrasiyanın cənub yamacı fəal kənar olub və daha sonrakı kontinental plitələrin kolliziyası nəticəsində dərinlik prosesləri irsən qalıb. Nəticədə burada bütün Anadolunu, Qafqazı, Şimal-Şərqi İranı əhatə edən geniş kaynozoy vulkanizmi əmələ gəlib. Böyük və Kiçik Qafqazın qırışıqlıq strukturlarının müasir vəziyyətdə formalaşması kövrək kolliziyanın əsas tektonik fazaları ilə əlaqədardır.

Seysmologiya və Yer təkinin fizikası kafedrasının müdiri dosent Əvəz Məmmədov "Akustik emissiya effektinin proqnostik xüsusiyyətlərinin eksperimental tədqiqatları" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə əsasən müxtəlif zonalarda akustik hadisələrin sayının dəyişməsi ilə bağlı geofiziki məsələlərə toxunulub, işin praktiki əhəmiyyəti nəzərə çatdırılıb.

Daha sonra Faydalı qazıntılar kafedrasının dosenti Ülkər Kərimli “Piyazbaşı filiz sahəsinin filiz minerallaşması (Ordubad filiz rayonu)” mövzusunda məruzəsində tədqiqat sahəsində formalaşan filiz minerallarının genetik xüsusiyyətləri, onların əmələgəlmə şəraiti haqqında məlumat verib.

Hidrogeologiya və mühəndis geologiyası kafedrasının müəllimi Ələkbər Mirzəyev “Şamaxı-Qobustan ərazisinin mühəndisi-geoloji şəraitinə təbii və texnogen amillərin təsirinin qiymətləndirilməsi” mövzusunda çıxış edərək tədqiqat aparılan ərazidə sürüşmə prosesinin ən çox yayılan ekzogen - geoloji proseslərdən olduğu bildirib. Sürüşmələrin əmələ gəlməsinə təsir edən mühüm təbii və texnogen amillərin ərazinin seysmikliyi, atmosfer çöküntülərinin intensivliyi, sahənin geoloji - tektonik quruluşu və relyefi olduğu diqqətə çatdırılıb. Məruzəçi Qobustan ərazisində mövcud olan Mərəzə, Qurbançı, Cəyirli, Təklə-Mirzəbabalı və Çalov sürüşmə sahələri haqqında məlumat verib.

Sonda konfransın plenar iclası bədii hissə ilə başa çatıb.

Konfrans öz işini bölmələr üzrə davam etdirib.

# BDU və Konya Texniki Universiteti arasında əməkdaşlıq imkanları müzakirə edilib



***Mayın 24-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Türkiyənin Konya Texniki Universitetinin rektoru Babür Özçeliki qəbul edib.***

Rektor Elçin Babayev qonağa Azərbaycanın ən böyük və qədim universiteti olan BDU, burada həyata keçirilən tədris və elmi tədqiqatlar barədə məlumat verib. Bildirib ki, təhsil-elm-tədqiqat-innovasiya mərkəzlərindən birinə çevrilməkdə olan BDU-da elmin bütün sahələri üzrə kadr hazırlığı həyata keçirilir. Əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq elm və təhsil təşkilatları, dünyanın nüfuzlu universitetləri və elm qurumları ilə əlaqələrin genişləndirilməsi BDU-nun inkişaf strategiyasının əsas prioritetlərindəndir. Rektor qardaş Türkiyə universitetləri ilə əməkdaşlıqda, ikili diplom proqramlarının qəbulu, birgə elmi tədqiqatların aparılması, müəllim-tələbə mübadiləsində maraqlı olduğunu deyib.

Konya Texniki Universitetinin rektoru Babür Özçelik qəbula görə təşəkkürünü bildirib, rəhbərlik etdiyi universitet barədə ətraflı məlumat verib.

Görüşdə BDU və Konya Texniki Universiteti arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

# BDU-da "Dahi şəxsiyyət və müdrik lider" mövzusunda Respublika elmi konfransı keçirilib

(əvvəli 1-si səh)

Ulu öndərimizin layiqli davamçısı Prezident İlham Əliyev həm ata vəsiyyətini yerinə yetirən övlad, həm də onun memarı olduğu dövlətin rəhbəri, qurduğu qüdrətli ordunun Ali Baş Komandanı kimi Heydər Əliyev ucalığının parlaq təcəssümüdür. Vətəni, xalqı qarşısında misilsiz xidmətlərinə görədir ki, bu gün Ümummilli lider Heydər Əliyev ölkəmizin hər yerində və onun hüdudlarından kənarda belə hər bir azərbaycanlı tərəfindən yüksək ehtiram və dərin minnətdarlıq hissi ilə yad olunur. Ulu öndərin başladığı quruculuq işlərinin uğurlu icrasını bu gün möhtərəm Prezidentimiz İlham Əliyev uğurla təmin edir. 44 gün davam edən Vətən müharibəsində, haqq savaşımızda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi. Ölkəmizin ərazi bütövlüyü təmin edildi. Ali Baş Komandanımızın ətrafında xalqımız yumruq kimi birləşdi, haqq qələbə çaldı".







Elçin Babayev bildirib ki, "Təhsil millətin gələciyidir" deyən Ümummilli lider BDU-nun məzunu olmağı ilə fəxr etdiyini dəfələrlə vurğulayıb. Ulu öndərin universitetdə təhsil illəri, habelə sonralar bu təhsil ocağı ilə sıx əlaqələri BDU tarixinin şanlı bir mərhələsini təşkil edir: "BDU-nun ən böyük məzunu Heydər Əliyevdir. Ona görə ki, bu Universiteti, eləcə də bütünlükdə Azərbaycan xalqını Heydər Əliyev qədər yüksəkliklərə qaldıran ikinci məzun yoxdur".

Milli Məclisin Komitə sədri, BDU-nun Konstitusiya hüququ kafedrasının müdiri Ziyafət Əsgərov Ümummilli liderin hüquqi dövlət quruculuğu istiqamətindəki fəaliyyəti barədə çıxış edib. Bildirib ki, müstəqil Azərbaycan dövlətinin hüquqi əsaslarının yaradılması Ulu öndərin adı ilə bağlıdır. Bu əsaslar güclü iqtisadiyyat, ordu quruculuğu və peşəkar xarici siyasətə söykənir. Məhz bu istiqamətlərdə həyata keçirilən uzaqgörən siyasət Azərbaycanın sonrakı uğurlarının və Vətən müharibəsindəki qələbəmizin əsasını qoyub. Hazırda Azərbaycanın güclü iqtisadiyyatı və ordusu var, bütün dünyada artıq ölkəmizlə hesablaşırlar.

Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov isə çıxışında Ulu öndərin müstəqilliyimizin qorunub saxlanılmasındakı xilaskarlıq missiyasını nəzərə çatdırıb. O vurğulayıb ki, Ulu öndər olmasaydı, Azərbaycan XX əsrin sonlarında ikinci dəfə dövlət müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalacaqdı. O, nəinki xalqın xilaskarı, eləcə də Azərbaycan dövlətinin möhkəmlənməsinin banisidir.

Millət vəkili, BDU-nun Genetika kafedrasının müdiri Kamilə Əliyeva çıxışında qeyd edib ki, dahi liderin həyatı və fəaliyyəti hər bir azərbaycanlı üçün nümunədir. Azərbaycanın əldə etdiyi və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən nailiyyətlərin təməlində Ümummilli liderin müəyyənləşdirdiyi daxili və xarici siyasət kursu dayanır.

Daha sonra millət vəkili, BDU-nun Ümumi dilçilik kafedrasının müdiri Nizami Cəfərov "Heydər Əliyevin dil və ədəbiyyat siyasəti", Tarix fakültəsinin dekanı İbrahim Zeynalov "Heydər Əliyev: 1969-1982-ci illər intibah dövrünün banisi" mövzularında məruzə ilə çıxış ediblər.

Tədbir ədəbi-bədii hissə ilə davam edib. Qeyd edək ki, konfrans öz işini növbəti gün bölmə iclasları ilə davam etdirib.

# Hüquq fakültəsində Ümummilli liderin anadan olmasının 99-cu ildönümü qeyd olunub

***Mayın 11-də Hüquq fakültəsində professor-müəllim heyətinin iştirakı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə Dövlət himni səsləndirilib, Ulu öndərin və şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Sonra Ümummilli liderə həsr edilmiş videoçarx nümayiş etdirilib.

Tədbirdə fakültənin dekanı Zaur Əliyev çıxış edərək Ulu öndərin hər bir azərbaycanlı üçün nümunə olan şərəfli həyat yolundan bəhs edib. Bildirib ki, müasir Azərbaycan tarixinin bütöv bir mərhələsi xalqımızın Ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın dövlət müstəqilliyi Ulu öndərin müdrik siyasəti nəticəsində əbədi və dönməz xarakter alıb. Prezident İlham Əliyevin rəhbərliyi və qüdrətli sərkərdəliyi ilə isə ərazi bütövlüyümüz təmin olunub. Vətən müharibəsində qazanılmış möhtəşəm Zəfərin, ölkəmizdə dinamik inkişafın əsasında Heydər Əliyev ideyaları, onun formalaşdırdığı nadir inkişaf strategiyası dayanır. Ulu öndərin zamanın fövqündə duran müdrikliyi ilə böyük həyat və idarəetmə təcrübəsinin vəhdəti onu iki əsrin dahisinə çevirib.



Zaur Əliyev qeyd edib ki, Ümummilli liderin əsasını qoyduğu xeyirxahlıq missiyası bu gün dahi şəxsiyyətin adını daşıyan və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən uğurla davam etdirilir. 2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək, yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Bu gün Qarabağda quruculuq işləri sürətlə davam etdirilir. İşğaldan azad olunmuş ərazilərimizdə bərpa işləri hələ Vətən müharibəsinin davam etdiyi günlərdən başlanıb. Düşməndən azad edilən Suqovuşana və Talışa gedən yolun çəkilişinə start veriləndə hələ hərbi əməliyyatlar davam edirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin azad edilmiş ərazilərə ilk səfəri "Zəfər yolu"nun təməlinin qoyulması ilə yadda qalıb. Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzura səfərləri işğaldan azad olunmuş ərazilərimizin sürətlə bərpa olunduğunu bütün dünyaya nümayiş etdirib.

Daha sonra tədbir professor-müəllim heyətinin çıxışları ilə davam edib. Tədbirdə Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının müdiri professor Məsumə Məlikova, Beynəlxalq ümumi hüquq kafedrasının müdiri professor Rüstəm Məmmədov, Kriminalistika və məhkəmə ekspertizası kafedrasının müdiri professor Kamil Səlimov, Cinayət prosesi kafedrasının müdiri Firuzə Abbasova, Əqli mülkiyyət hüququ kafedrasının müdiri Aydın Səfixanlı və fakültənin 2-ci kurs tələbəsi Cavid Mirzəzadə çıxış ediblər.

# Ümummili lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan idman yarışlarının bağlanış mərasimi

***Mayın 4-də Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan ali və orta ixtisas təhsili müəssisələri arasında silsilə idman yarışlarının bağlanış mərasimi keçirilib.***

Yarışların təşkilatçıları Yasamal Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyasının Yasamal rayon təşkilatı, Yasamal rayon Gənclər və İdman İdarəsidir.

Bağlanış mərasimində Milli Məclisin vitse-spikeri, MM-in Gənclər və idman komitəsinin sədri Adil Əliyev, BDU-nun rektoru Elçin Babayev, Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov, Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri Elnur Məmmədov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Zemfira Meftahətdinova, millət vəkili Ülvi Quliyev iştirak ediblər.



Mərasimdə çıxış edən Milli Məclisin vitse-spikeri, MM-in Gənclər və idman komitəsinin sədri Adil Əliyev qeyd edib ki, Azərbaycan xalqı Ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünü böyük sevinc hissi ilə qarşılayır. Azərbaycanda idmanın inkişafı Ümummilli liderin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra gənclər və idman siyasəti dövlətin əsas prioritetləri sırasına daxil edilib. Bu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda Azərbaycan dünyada idman ölkəsi kimi tanınır, bir sıra mötəbər beynəlxalq yarışlara ev sahibliyi edir.

Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri Elnur Məmmədov isə bildirib ki, Ulu öndər Heydər Əliyevin sərəncamı ilə 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradılıb, idmanın inkişafına xüsusi diqqət ayrılıb. Hazırda Azərbaycan gəncləri həm təhsil, həm idman sahəsində bütün dünyada öz uğurları ilə seçilirlər.

Daha sonra idman yarışlarının qalibləri elan olunub.

Qeyd edilib ki, Ümummili lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan yarışlarda müxtəlif ali və orta ixtisas məktəblərindən idmanın 6 növü üzrə 422 tələbə mübarizə aparıb. Onlardan 300-ü oğlan, 122-si qızdır.

Oğlanlar üzrə voleybol yarışlarında III yeri Azərbaycan Texniki Universitetinin, II yeri Azərbaycan Pedaqoji Kollecinin, I yeri isə Azərbaycan Memarlıq və İnşaat Universitetinin komandaları qazanıb.

Qızlar arasında voleybol yarışlarında III yerə Azərbaycan Texniki Universiteti, II yerə Azərbaycan Pedaqoji Kolleci, I yerə isə BDU-nun komandası sahib olub.

Dama yarışlarında III yeri İnşaat Kolleci, II yeri Bakı Nəqliyyat və Rabitə Kolleci, I yeri isə Azərbaycan Pedaqoji Kollecinin komandaları qazanıb.

Şahmat yarışlarında III yerə Azərbaycan Memarlıq və İnşaat Universiteti, II yerə Azərbaycan Texniki Universiteti, I yerə isə BDU-nun komandaları layiq görülüb.

Mini futbol yarışlarının qalibləri 2 nömrəli Bakı Baza Tibb Kolleci (III yer), Azərbaycan Texniki Universiteti (II yer) və Bakı Dövlət Universitetinin (I yer) komandaları olub.

Stolüstü tennis yarışlarında III yerə Azərbaycan Texniki Universiteti, II yerə Azərbaycan Pedaqoji Kolleci, I yerə isə BDU-nun komandaları layiq görülüb.

Basketbol yarışlarının qalibləri isə Azərbaycan Pedaqoji Kolleci (III yer), Bakı Dövlət Universiteti (II yer) və Azərbaycan Texniki Universitetinin (I yer) komandaları olub.

Beləliklə, BDU-nun qızlar arasında voleybol, şahmat, stolüstü tennis və mini futbol komandaları Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan idman yarışlarının qızıl, basketbol komandası isə gümüş mükafatçısı olub.

# BDU-nun nəzdində "Gənc istedadlar" liseyində "Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda konfrans

***Mayın 11-də Bakı Dövlət Universitetinin (BDU) nəzdində "Gənc istedadlar" liseyində Heydər Əliyev muzeyinin və BDU könüllülərinin birgə təşkilatçılığı ilə Ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar "Heydər Əliyev və milli-mənəvi dəyərlər" adlı konfrans keçirilib.***

Liseyin direktoru Arif Bağırov çıxış edərək Ümummilli liderin dövlətçiliyimizin və müstəqilliyimizin qorunmasında misilsiz xidmətlərindən bəhs edərək dahi Öndərin bütün sahələrdə həyata keçirdiyi uğurlu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən davam etdiyini vurğulayıb.



Bildirib ki, "Təhsil millətin gələcəyidir" deyən Ulu öndər təhsil və elm sahəsinin daim hamisi olub, Azərbaycan gənclərinin bilikli, dünyagörüşlü və vətənpərvər olmasına çalışıb.

Heydər Əliyev muzeyinin mütəxəssisi Afət Seyidzadə "Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda məruzə edib. Məruzədə Ümummilli liderin milli-mənəvi dəyərlərin qorunması, mədəniyyətimizin inkişafına yönəlmiş fəaliyyəti barədə konfrans iştirakçılarına geniş məlumat verilib. Həm sovet dönəmində, həm də müstəqil Azərbaycanın rəhbəri olarkən onun təhsil və mədəniyyətimizin prioritet sahə kimi inkişafı, ana dilimizin mühafizəsi istiqamətindəki fəaliyyətindən geniş söhbət açılıb. Məruzədə Ulu Öndərin dünya azərbaycanlılarının milli birliyinin ideoloqu, təbliğatçısı və təşkilatçısı olmaq missiyasını böyük uğurla həyata keçirməsi xüsusi qeyd olunub.

# "Ekologiya və torpaqşünaslıq elmləri XXI əsrdə" mövzusunda III Respublika elmi konfransı

***Mayın 12-də Ekologiya və torpaqşünaslıq fakültəsinin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Ekologiya və torpaqşünaslıq elmləri XXI əsrdə" mövzusunda III Respublika elmi konfransının plenar iclası keçirilib.***

Tədbiri giriş sözü ilə açan Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı Akif Ağbabalı Ulu öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyəti, Azərbaycanın inkişafı və milli dövlətçiliyin gücləndirilməsi istiqamətində misilsiz tarixi xidmətlərindən danışaraq, konfransın işinə uğurlar arzulayıb.



Elmi tədqiqatların təşkili və təhlili şöbəsinin müdiri Mirnamiq Bəşirov Ümummilli lider Heydər Əliyevin elmə, təhsilə olan diqqət və qayğısından bəhs edib. Mirnamiq Bəşirov müxtəlif aktual problemlər üzrə seminar və konfransların elmin inkişafına verdiyi töhfəyə diqqət çəkib.

Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva çıxış edərək xalqımızın tarixinə böyük xilaskar kimi həkk olunan dahi şəxsiyyət Heydər Əliyevin yürütdüyü ekoloji siyasət, respublikada ekoloji problemlərin həlli yolunda atdığı addımlar haqqında məlumat verib.

Sonra Torpaqşünaslıq və daşınmaz əmlakın kadastrı kafedrasının dosenti Azər Cəfərov "Torpaq resurslarımız: təbii, təsərrüfat və hüquqi aspektləri" və magistrant Xaliqə Cəfərova "Xəzər dənizindən götürülmüş su nümunələrinin kimyəvi analizi" mövzularında məruzələrlə çıxış ediblər.

Konfransda ekokimyəvi tədqiqatlar, ətraf mühitin mühafizəsi, təbii resurslardan istifadənin istiqamətləri, torpaqların münbitliyi, aqroekoloji problemlərlə bağlı müzakirələr aparılıb.

Qeyd edək ki, konfransın proqramına 113 tezis daxil edilib.

# Tarix fakültəsində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş tədbir

***Mayın 5-də Tarix fakültəsində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Heydər Əliyev: Azərbaycanda dirçəlişə, keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünəqayıdışa dönüş mərhələsinin başlanğıcını qoyan dühə" adlı tədbir keçirilib.***

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.





Milli Məclisin deputatı, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri, tarix elmləri doktoru, professor Anar İsgəndərov çıxış edərək müstəqil dövlətimizin memarı və qurucusu olan Ulu öndər Heydər Əliyevin müasir Azərbaycan tarixindəki rolu, demokratik, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi islahatlar, irimiqyaslı layihələr barədə ətraflı məlumat verib. Bildirib ki, Ümummilli lider Heydər Əliyev bütün ictimai-siyasi fəaliyyəti dövründə Azərbaycanın inkişafı üçün çalışıb, millətimiz, xalqımız üçün əlindən gələni əsirgəməyib.

Daha sonra çıxış edən Milli Məclisin deputatı, Milli Məclisin Elm və Təhsil komitəsinin sədr müavini, AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı təməli Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər, təhsil və elm siyasətindən, bu sahədə qazanılan mühüm uğurlardan bəhs edib.

Milli Məclisin deputatı Naqif Həmzəyev öz çıxışında Ulu öndərin Azərbaycanda siyasi hakimiyyətə yenidən qayıdışı ilə ölkənin davamlı inkişaf yoluna qədəm qoyduğunu, sabitliyin bərqərar olduğunu, xarici siyasətdə böyük uğurlar qazanıldığını vurğulayıb.

Sonda Ümummilli liderə həsr olunmuş videoçarx izlənilib, xatirə şəkli çəkilib.

# BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə "Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda konfrans

***Mayın 6-da Bakı Dövlət Universitetinin Heydər Əliyev muzeyinin, BDU Könüllülərinin və Universitetin nəzdində İqtisadiyyat və Humanitar Kollecin birgə təşkilatçılığı ilə Ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu il dönümünə həsr olunmuş "Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda konfrans keçirilib.***



Konfransda çıxış edən kollecin direktoru, professor Səhər Orucova Ümummilli lider Heydər Əliyevin xalqımızın tarixi keçmişinə, mədəni irsinə, milli dəyərlər sisteminə sonsuz məhəbbətlə yanaşdığını qeyd edib. O, çıxışında Heydər Əliyev siyasətində milli-mənəvi dəyərlərə göstərilən qayğıdan geniş şəkildə söz açıb və günümüzdə də həmin siyasətin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini vurğulayıb.

Daha sonra məruzə ilə çıxış edən Heydər Əliyev muzeyinin mütəxəssisi, tarix üzrə fəlsəfə doktoru Afət Seyidzadə Ulu öndərin həm sovet, həm də müstəqillik dövründə ölkəmizə rəhbərlik etdiyi illərdə mədəni və tarixi irsin, mədəniyyətin, ədəbiyyatın, incəsənətin və digər sahələrin himayəçisi olduğunu bildirib, əldə olunmuş nailiyyətlərdən danışıb.

Məruzəçi vurğulayıb ki, Ulu öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunmasına, mədəniyyətimizin inkişafına yönəlmiş fəaliyyəti onun hələ sovet dönəmində respublikamıza rəhbərlik etdiyi dövrdən başlayıb. Azərbaycanda 60-cı illərin sonu - 70-ci illərin əvvəllərindən başlayaraq vüsət almış quruculuq işləri, ölkənin hərtərəfli inkişafı Heydər Əliyevin milli təəssübkeşliyindən doğan əzəmətli fəaliyyətinin nəticəsi kimi qiymətləndirilir.

Tədbir BDU-nin Filologiya fakültəsinin Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının doktorantı və Azərbaycan dili və ədəbiyyatı fənn birləşmə sədri Aynurə Qurbanın mövzu ətrafında çıxışı ilə davam edib.

# "Ulu öndər Heydər Əliyev və Azərbaycanda kitab mədəniyyəti"

***Mayın 11-də Kitabxanaçılıq-informasiya fakültəsi, Kəlbəcər Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyasının (YAP) Kəlbəcər rayon təşkilatı və Mədəniyyət Nazirliyinin Gəncə Regional Mədəniyyət İdarəsinin Kəlbəcər rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə Gəncə şəhərində Ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Ulu öndər Heydər Əliyev və Azərbaycanda kitab mədəniyyəti" mövzusunda Respublika konfransı keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ümummilli liderin abidəsini və şəhidlərin xatirəsinə həsr edilmiş memorial kompleksi ziyarət ediblər.***



Sonra Kəlbəcər Rayon İcra Hakimiyyətinin konfrans zalında Dövlət himni səsləndirilib, Ümummilli liderin və şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad olunub.

Konfransı giriş sözü ilə açan Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Azər Qocayev qonaqları salamlayıb, Ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazandığımız tarixi Zəfər haqqında danışıb. Natiq Ümummilli lider Heydər Əliyevin Azərbaycanda elm və təhsilin, mədəniyyətin, həmçinin kitabxana işinin inkişafındakı misilsiz xidmətlərindən bəhs edib.

YAP Kəlbəcər rayon təşkilatının sədri Həbib Misirov çıxışında bildirib ki, möhkəm təməlləri Ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən müdrik siyasət nəticəsində ölkəmiz dünyanın aparıcı dövlətlərindən birinə çevrilib. Tarixi Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsi nəticəsində 30 illik işğala son qoyulub, Ulu öndərimiz Heydər Əliyevin müqəddəs ata vəsiyyəti Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən həyata keçirilib. Həbib Misirov Ulu öndərə həsr olunmuş konfransın Kəlbəcər rayonu ictimaiyyəti ilə birgə keçirilməsinə şərait yaratdıqlarına görə Universitet rəhbərliyinə minnətdarlığını bildirib.

Konfransda BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı Ələmdar Cabbarlı, Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan, Kitabşünaslıq və nəşriyyat işi kafedrasının dosenti Rasim Süleymanov, Samux Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Telli Nəsibova mövzu ətrafında məruzə ediblər. Məruzələrdə Ulu öndər Heydər Əliyevin Azərbaycanda kitabxana işi sahəsində həyata keçirdiyi islahatlardan bəhs olunub, tarixi faktlar diqqətə çatdırılıb. Vurğulanıb ki, Ümummilli liderin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən həmin siyasət uğurla davam etdirilir, kitabxana-informasiya işinin inkişafı ilə bağlı mühüm addımlar atılır.

Tədbirin davamında ustad sənətkar Aşıq Şəmşirin Ulu öndər Heydər Əliyevə həsr etdiyi şeirlər əsasında Mədəniyyət Nazirliyinin Gəncə Regional Mədəniyyət İdarəsinin Kəlbəcər rayonu üzrə nümayəndəliyi tərəfindən hazırlanmış "Zərli tac kamallı başa yaraşır" adlı ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

Sonda Bakı Dövlət Universitetinin Elmi Kitabxanası, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, "Elm" Nəşriyyatı və "Akademkitab" Birliyi tərəfindən Kəlbəcər rayonunun Mərkəzləşdirilmiş Kitabxana Sisteminə hədiyyə edilmiş kitabların sərgisinə baxış keçirilib.

# Azərbaycanda analitik kimya ixtisası üzrə ilk və yeganə akademik

***Mayın 6-da Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü, kimya elmləri doktoru, professor, əməkdar elm xadimi Rəfiqə xanım Əliyevanın anım günüdür.***

***Görkəmli alim, akademik Rəfiqə Əlirza qızı Əliyeva onu tanıyanların yaddaşında əsl Azərbaycan qadını, elm fədaisi və humanist qəlbli insan kimi yaşayır, işıqlı xatirəsi daim ehtiramla anılır.***

Rəfiqə Əliyeva 1932-ci il sentyabrın 20-də Naxçıvan şəhərində anadan olub. Ali təhsilini 1951-1956-cı illərdə Bakı Dövlət Universitetinin Kimya fakültəsində alıb. Əmək fəaliyyətinə 1956-cı ildə Azərbaycan Politexnik İnstitutunda başlayan Rəfiqə Əliyeva 1957-ci ildən etibarən BDU-da, 1958-1960-cı illərdə isə Azərbaycan Elmlər Akademiyasının Kimya Problemləri İnstitutunda kiçik elmi işçi kimi çalışıb. 1960-1963-cü illərdə BDU-nun Kimya fakültəsinin aspiranturasında təhsil alan Rəfiqə Əliyeva 1964-cü ildən ömrünün sonuna qədər Universitetin Analitik kimya kafedrasında işləyib və burada assistent, baş müəllim, dosent, professor vəzifələrini tutub. O, 2001-ci ildən "Ekoloji kimya və ətraf mühitin mühafizəsi" elmi-tədqiqat laboratoriyasına rəhbərlik edib.

Rəfiqə Əliyeva 1970-ci ildə namizədlik, 1999-cu ildə doktorluq dissertasiyalarını müdafiə edib və həmin ildə professor adına layiq görülüb. 2007-ci ildə



Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilib. O, Azərbaycanın elm tarixində analitik kimya ixtisası üzrə ilk və yeganə akademik kimi qalır. Görkəmli akademik 2017-ci il mayın 6-da əbədiyyətə qovuşub.

Ömrünü kimya elminə həsr etmiş Rəfiqə Əliyeva bu sahədə yüksəkixtisaslı kadrların hazırlanmasına bütün bilik və bacarığını sərf edib. Yarım əsrdən artıq pedaqoji fəaliyyətlə məşğul olan alimin araşdırmaları analitik reaksiyaları xarakterizə edən parametrlərlə kompleks birləşmələrin quruluşu arasındakı asılılığın müəyyən edilməsinə həsr olunub. Rəfiqə xanımın ətraf mühitin mühafizəsi ilə bilavasitə bağlı olan bir sıra tədqiqatları, eyni zamanda, üzvi reaktivlərin köməyi ilə metalların təyini və onların ayrılması metodikasının işlənib hazırlanmasına yönəlib. Ekologiyanın aktual problemləri ilə bağlı işləri isə ölkəmizin davamlı inkişafının təmin olunmasına öz töhfəsini verib.

450-dən artıq elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifi olan Rəfiqə Əliyeva bir sıra elmi şuraların və cəmiyyətlərin üzvü olub. Alimin rəhbərliyi altında 20-dən çox fəlsəfə və elmlər doktoru yetişib.

Akademik Rəfiqə Əliyevanın elmi-pedaqoji fəaliyyəti Azərbaycan dövləti tərəfindən layiqincə qiymətləndirilib. Azərbaycan Prezidentinin sərəncamı ilə o, "Əməkdar elm xadimi" adına layiq görülüb, "Şöhrət" ordeni ilə təltif edilib. Akademik Y. Məmmədəliyev adına mükafatın laureatı olan Rəfiqə Əliyeva Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, Amerika Biblioqrafiya İnstitutu tərəfindən "2001-ci ilin adamı" və "2001-ci ilin işgüzar qadını" seçilib. 2018-ci ildə "Azərbaycanım" Beynəlxalq Jurnalının redaksiya şurası "Akademik Rəfiqə Əliyeva adına Qızıl Orden" təsis edib.

Onun ekologiyaya və ümumi ekologiyaya aid dərs vəsaitləri isə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Həsən Əliyev adına mükafatı ilə qiymətləndirilib.

Görkəmli alim, həssas qəlbli insan, qayğıkeş ana Rəfiqə xanım Əliyevanın əziz xatirəsi qəlbimizdə həmişə yaşayacaq və gənc nəsil onun yaratdığı elmi istiqaməti davam etdirəcək.

# BDU-da "Zamana sığmayan lider: Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi" kitabının təqdimatı

***Mayın 17-də Bakı Dövlət Universitetində Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanovun "Zamana sığmayan lider: Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi" kitabının təqdimatı keçirilib.***






Təqdimat mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, Azərbaycan xalqının Ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə yeni parlaq səhifə açan nadir, bənzərsiz şəxsiyyətdir. Bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin qurulmasına və inkişafına həsr etmiş dahi liderin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlər möhtəşəm quruculuq və tərəqqi, davamlı və hərtərəfli inkişaf mərhələləri kimi şanlı tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb. Dövlət müstəqilliyi uğrunda şərəfli mübarizədə müstəsna rolu olan Ümummilli lider Heydər Əliyev ölkəmizin ictimai-siyasi həyatının bütün sahələrində silinməz iz buraxıb, gələcək nəsillər üçün böyük məktəb yaradıb.

Rektor vurğulayıb ki, Ümummilli lider Heydər Əliyev haqqında saysız-hesabsız əsərlər yazılıb, cild-cild kitablar nəşr olunub: "Heydər Əliyev irsi elə bir xəzinədir ki, onu öyrənib, tədqiq edib başa çatdırmaq mümkün deyil. Bu irs bundan sonra da daim araşdırılacaq, tədqiq ediləcək, yeni-yeni nəsillərin tədqiqat obyekti olacaq.

Ulu öndər haqqında nəşr olunan kitabların hər birinin diqqətçəkən olduğunu vurğulayan Elçin Babayev bildirib ki, bunların arasında Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanovun müəllifi olduğu "Zamana sığmayan lider: Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi" adlı monoqrafiyası xüsusi önəm daşıyır. Dörd fəsildən ibarət monoqrafiyada Ulu öndərin siyasətinin fəlsəfi mahiyyəti, iqtisadi, siyasi, mədəni quruculuq və milli ideologiyanın formalaşması sahəsində misilsiz xidmətləri ətraflı təhlil olunur, həmçinin dahi liderin layiqli davamçısı Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasəti, birinci xanım Mehriban Əliyevanın ölkəmizin Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti kimi xoşməramlı missiyasından



bəhs olunur. Monoqrafiya Ümummilli liderin zəngin irsinin öyrənilməsi istiqamətində əhəmiyyətli rol oynayacaq, həm müəllimlərin, həm də tələbələrin faydalanacağı tədqiqat əsərinə çevriləcək.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov kitabın təqdimatına şərait yaradıldığına görə BDU rəhbərliyinə təşəkkür edib və tədqiqat əsərinin yazılma zərurətindən danışıb. Qeyd edib ki, Ümummilli lider Heydər Əliyev fenomeni nəinki Azərbaycanda, bütün dünyada özünə layiqli yer tutub. Azərbaycanın indiki uğurlarının təməlində məhz Ulu öndər Heydər Əliyevin dövlətçilik və azərbaycançılıq ideologiyası dayanır. Bu ideologiya xalqın rifahına, milli kimlik şüurunun oyanmasına xidmət edir. Heydər Əliyev şəxsiyyətinin öyrənilməsi ilə Azərbaycanın dövlət olaraq necə yüksək inkişaf yolu keçdiyini bilmək olur.

Milli Məclisin deputatları Musa Qasımlı, Fazil Mustafa, Hikmət Babaoğlu, Kamilə Əliyeva, YAP-ın Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə, Binəqədi rayon təşkilatının sədri Vüsal İsmayılov, Tarix fakültəsinin dekanı İbrahim Zeynalov, Mexanika-riyaziyyat fakültəsinin dekanı Ziyatxan Əliyev çıxışlarında Ulu öndər Heydər Əliyevin milli ideologiyanın formalaşması, dövlət idarəçiliyi, iqtisadi, mədəni quruculuq, Azərbaycan dilinin qorunması sahəsində yorulmaz fəaliyyəti, elm və təhsilə qayğısı ilə bağlı fikirlərini bölüşüb, kitabın böyük elmi, siyasi və mənəvi dəyərə malik olduğunu bildiriblər.

# BDU-nun şəhid məzunları Nadir Nadirli və Tərxan Qurbanovun məzarları ziyarət olunub

***Mayın 10-da Biologiya fakültəsinin bir qrup tələbə və əməkdaşı fakültənin şəhid məzunları Nadir Nadirli və Tərxan Qurbanovun ailələrini ziyarət edib.***

Əvvəlcə Mingəçevir və Şəmkir Şəhidlər xiyabanlarında şəhid məzunların məzarları ziyarət olunub, qarşısına əklil qoyulub, ruhlarına dualar oxunub. Daha sonra tələbə və müəllimlər hər iki şəhidin ailəsində olublar.

Görüşdə qeyd olunub ki, BDU-da şəhid tələbə və məzunların xatirəsi daim əziz tutulur, şəhid ailələri və qazilərlə vaxtaşırı görüşlər keçirilir. Ziyarətçilər Nadir Nadirli və Tərxan Qurbanovun Vətən torpağı uğrunda qəhrəmancasına şəhidlik zirvəsinə ucalmalarından qürur duyduqlarını və onların xatirəsinin əbədi yaşayacağını bildiriblər.








# Elmi Şuranın növbəti iclası

***Mayın 16-da Bakı Dövlət Universitetinin Elmi Şurasının növbəti iclası keçirilib.***

İclasda yaz semestrinin imtahan sessiyasına hazırlıqla bağlı müvafiq tapşırıqlar verilib, qanunvericiliyə uyğun olaraq bakalavriat və magistratura səviyyələri üzrə Yekun Dövlət Attestasiyasının təşkili haqqında qərar qəbul olunub.

Daha sonra BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin 2021-ci il üzrə hesabatı dinlənilib. Liseyin direktoru Arif Bağırov qeyd edib ki, ötən il təhsil müəssisəsində 31 sinif komplektində 622 şagird təhsil alıb. Onların tədrisi ilə 76 müəllim məşğul olub. Ötən il liseyin XI sinfini 50 nəfər bitirib. Buraxılış imtahanlarında 32 nəfər 200 baldan yuxarı toplayıb. Buraxılış imtahanına görə liseyin orta bal göstəricisi 223 bal olub. Qəbul imtahanlarında liseyin 12 şagirdi 600-dən yuxarı bal toplayıb. Ötən il lisey məzunlarının 7-si fərqlənmə attestatına, 9 nəfəri "qızıl", 2 nəfəri isə "gümüş" nişana layiq görülüb. Bu, respublika üzrə üçüncü nəticədir. Məzunların hamısı respublika və xarici ölkələrin ali məktəblərinə qəbul olunub.



İclasda BDU-nun Antiplagiat Komissiyasının 2021-ci il üzrə hesabatı da dinlənilib. Komissiyanın rəhbəri Kəmalə Alışeva bildirib ki, ötən il Komissiya tərəfindən 306 iş yoxlanılıb. Onların 127-si fəlsəfə doktoru dissertasiyası, 82-si dərs vəsaiti, 30-u monoqrafiya, 29-u dərslik, 27-si elmlər doktoru dissertasiyası, 8-i tədris-metodiki vəsait, 4-ü konfrans materialı, 2-si jurnal olub.

İclasın sonunda cari məsələlərə baxılıb.

# "Heydər Əliyev Azərbaycan dili və ədəbiyyatının hamisi kimi"

***Mayın 16-da Filologiya fakültəsinin təşəbbüsü ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Heydər Əliyev Azərbaycan dili və ədəbiyyatının hamisi kimi" mövzusunda Respublika elmi konfransı keçirilib.***

Tədbir Dövlət himninin səsləndirilməsi və Ulu öndər Heydər Əliyevin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb.

Plenar iclası giriş sözü ilə açan BDU-nun Filologiya fakültəsinin dekanı, dosent Elçin Məmmədov qonaqları salamlayaraq, Ulu öndər Heydər Əliyevin çoxşaxəli siyasi fəaliyyəti, milli dövlətçiliyin gücləndirilməsi istiqamətində apardığı islahatlar, banisi olduğu azərbaycançılıq ideologiyası, Azərbaycan dili və ədəbiyyatının inkişafına verdiyi əvəzolunmaz töhfələrdən danışıb. Bildirib ki, Ümummilli liderin Azərbaycana rəhbərliyi dövründə ədəbiyyat və mədəniyyət xadimləri, elm adamları yüksək qayğı ilə əhatə olunub, dövlət dilinin qorunması və təbliği istiqamətində tarixi əhəmiyyət daşıyan fərman və sərəncamlar imzalanıb, görkəmli ədəbi şəxsiyyətlərin yubileyləri qeyd edilib. Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu şərəfli missiyanı uğurla davam etdirir, xüsusilə Qarabağ ədəbi-mədəni mühitinin əvvəlki nüfuzunun qaytarılması yönündə mühüm addımlar atır. Ölkəmizin mədəniyyət beşiyi Şuşada tarixi önəm daşıyan tədbirlər həyata keçirilir.

Sonra BDU-nun "Dədə Qorqud" ETL-in aparıcı elmi işçisi, professor Adil Babayev, Azərbaycan dilçiliyi kafedrasının müdiri, professor Tofiq Hacıyev Ümummilli liderin həyat və fəaliyyəti ilə bağlı çıxışlar ediblər. Çıxışlarda xalqımızın tarixinə böyük xilaskar kimi həkk olunan dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan naminə uzaqgörənliklə atdığı addımlardan, xalqımızın milli-mənəvi dəyərləri və ədəbi-bədii nümunələrinin qorunması, tariximizin düzgün istiqamətdə öyrənilməsi, ana dilimizin cəmiyyətdəki nüfuzunun artırılması yönündə apardığı məqsədyönlü siyasətdən bəhs olunub. Qeyd edilib ki, Azərbaycan dilinin dövlət dilinə çevrilməsi, mədəni və sosial-siyasi həyatda layiqli yer tutması, dünya diplomatiyasına yol tapması, mötəbər məclislərin kürsülərindən eşidilməsi Ulu öndərin ana dilinin inkişafına göstərdiyi qayğı və diqqətin nəticəsində mümkün olub. Həmçinin xalqımızın milli-mənəvi dəyərlərinin qarantı olan, bütün varlığı ilə Vətənə bağlı böyük dövlət xadimi Heydər Əliyevin mədəniyyətimizin, elmimizin və təhsilimizin hərtərəfli inkişafı üçün gördüyü işlərin konkret nəticələr verdiyi vurğulanıb.

Konfransın davamında Ulu öndər Heydər Əliyevə həsr olunmuş videoçarx nümayiş etdirilib, fakültənin tələbələri Cahan Salmanova və Ülviyyə Orucovanın ifasında şeirlər səsləndirilib.

Plenar iclasdan sonra konfrans öz işini üç bölmə iclası ilə davam etdirib. Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, professor Səhər Orucovanın sədrliyi ilə "Heydər Əliyev Azərbaycan dili və ədəbiyyatının hamisi kimi", Rus dili (təbiət fakültələr üzrə) kafedrasının müdiri, professor Mikayıl Cəfərovun sədrliyi ilə "Dilçilik", Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Həqiqət Abdıyevanın sədrliyi ilə "Ədəbiyyatşünaslıq" bölmələrində filologiyanın aktual problemlərinə həsr olunmuş məruzələr dinlənilib.

# Beynəlxalq Muzeylər Günü qeyd olunub



***Mayın 19-da Bakı Dövlət Universitetində BDU-nun tarixi muzeyinin təşkilatçılığı ilə 18 May - Beynəlxalq Muzeylər Gününə həsr olunmuş tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan BDU-nun tarixi muzeyinin müdiri Günel Orucəliyeva qeyd edib ki, hər il 18 may tarixi dünyada və eləcə də ölkəmizdə Beynəlxalq Muzeylər Günü kimi geniş qeyd olunur. Beynəlxalq Muzeylər Şurasının təşəbbüsü ilə 1977-ci ildə təsis olunmuş bu əlamətdar günün məqsədi muzeylərin cəmiyyətin həyatında nə dərəcədə mühüm rol oynadığını göstərməkdir. Bu il Beynəlxalq Muzeylər Günü "Muzeylərin gücü" devizi altında keçirilir.

Daha sonra Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin Muzeyşünaslıq kafedrasının dosenti, muzeyşünas Anar Ağalarzadə, Azərbaycan Milli Xalça Muzeyinin mətbuat katibi Ülvinə Fərzəliyeva, Azərbaycan İstiqlal Muzeyinin elmi-kütləvi işlər şöbəsinin müdiri Şövkət Əsgərova, BDU-nun Tarix fakültəsinin dosenti Səidə Quliyeva çıxış ediblər. Çıxışlarda Azərbaycandakı muzeylərin fəaliyyəti, profilləri, ölkədə muzey işi ilə bağlı həyata keçirilən dövlət siyasəti barədə ətraflı məlumat verilib, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusunun işğaldan azad etdiyi Qarabağda vaxtilə mövcud olan muzeylərin və muzey filiallarının bərpası ilə əlaqədar görülən işlərdən danışılıb.

# BDU-da Rəqəmsal Araşdırmalar Laboratoriyası yaradılıb

Ali təhsil sahəsində potensialın artırılmasına xidmət edən sözügedən layihə çərçivəsində Universitetdə "Mobil tətbiqlər və oyun dizaynı" ixtisası üzrə təhsil alan tələbələr, layihə iştirakçıları və tədris prosesinə cəlb olunan müəllimlər BDU nəzdində müasir Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi nəzdində fəaliyyət göstərən Rəqəmsal Tədqiqatlar laboratoriyasının imkanlarından da yararlanmaqla bilik və bacarıqlarını artırırlar.

***Mayın 24-də Bakı Dövlət Universitetinin Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin nəzdində yaradılmış Rəqəmsal Tədqiqatlar Laboratoriyasının .***

Laboratoriyanın açılış mərasimində çıxış edən Universitetin rektoru Elçin Babayev qeyd edib ki, BDU-da təhsil, elm, sənaye və biznes vəhdətində müxtəlif sahələr üçün yüksək ixtisaslı mütəxəssislərin hazırlanması məsələsi daim diqqət mərkəzindədir. Bu baxımdan beynəlxalq əməkdaşlığı, dünyanın qabaqcıl universitetləri və elmi müəssisələri ilə əlaqələri inkişaf etdirmək və onların təcrübəsindən yaralanaraq elm və təhsil sahəsində innovasiyaların tətbiqinə nail olmaq BDU-nun inkişaf strategiyasında prioritet məsələdir: "Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əsaslı islahatlar həyata keçirilir. İcra olunan layihələrin nəticəsində strateji əhəmiyyət kəsb edən sahələr də yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu baxımdan son illərdə respublikamızda informasiya və kommunikasiya texnologiyaları sahəsinin müasirləşdirilməsi və inkişafı istiqamətində görülən işlər də miqyası və əhəmiyyəti ilə seçilir. BDU-nun müasir səviyyədə qurulan Rəqəmsal Tədqiqatlar Laboratoriyası da bunun bariz nümunəsidir. Bütün bunlar göstərir ki, hazırda Universitetdə inkişaf strategiyasına uyğun olaraq müvafiq sahənin inkişafına, onun maddi-texniki bazasının gücləndirilməsinə xüsusi önəm verilir".

Elçin Babayev vurğulayıb ki, Rəqəmsal Tədqiqatlar Laboratoriyası ilk növbədə tədqiqat potensialının, tələbələrin elmi-tədqiqat imkanlarının artırılmasına və ümumilikdə təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir: "Laboratoriya kompüter elmləri sahəsində hərtərəfli riyazi təhsili və biliyi olan, alqoritmik düşüncəyə sahib, effektiv alqoritmlərin qurulması və təhlilinin müasir metodlarını, texnologiyalarını bilən və onları real sənaye məsələlərinin həllində tətbiq etmək bacarığına malik mütəxəssislərin hazırlanması məqsədi daşıyan Avropa İttifaqının Erasmus + KA2 Proqramı çərçivəsində maliyyələşdirilən və İsveçin Linköpinq Universitetinin rəhbərliyi ilə icra olunan "Tərəfdaş universitetlərdə mobil tətbiqlər və oyun dizaynı magistr proqramlarının hazırlanması (MAGnUS)" layihəsinin dəstəyi ilə yaradılıb. Sözügedən layihənin icrasına 2019-cu ilin yanvar ayından başlanılıb. Layihənin icrasına Universitetin 5 əməkdaşı cəlb olunub və "Mobil tətbiqlərin hazırlanması və oyunların dizaynı" adlı yeni ixtisasın/ixtisaslaşmanın Azərbaycanda açılması üçün Təhsil Nazirliyinə müraciət olunub, daha sonra Təhsil Nazirliyi Nazirlər Kabineti qarşısında vəsatət qaldırıb. 2021-ci ilin sentyabr ayından etibarən BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinə yeni açılan bu ixtisas üzrə ingilis bölməsinə 5 tələbə qəbul olunub".

Qeyd edək ki, adı çəkilən ixtisas üzrə təhsil proqramı 120 kreditdən ibarətdir. 2 illik təhsil müddəti ərzində magistrantlara 21 fənn tədris olunacaq. Fənlərin tədrisinə ingilis dilində tədris edə bilən, praktik biliklərə sahib yüksək ixtisaslı kadrlar cəlb olunub. Bunlarla yanaşı, layihə çərçivəsində Avropa universitetlərinin təcrübəsindən faydalanmaq məqsədilə tərəfdaş ali məktəblərin müəllim və tələbələri üçün İsveç, Böyük Britaniya, Estoniya və Portuqaliyada intensiv təlimlər, Azərbaycanda yay məktəbləri və partnyor universitetlərin müəllim heyəti ilə mübadilə proqramlarının təşkili həyata keçirilir.

Bildirilib ki, ölkənin aparıcı elm və təhsil müəssisəsi olan BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin əsas qayəsi öz istedad və imkanlarına güvənən innovativ, yaradıcı tədqiqatçıları və təhsilalanları cəlb etmək, yeni nəsil alimlərin yetişməsinə töhfə vermək, təhsil və elm sahəsində transformativ təkmilləşdirmələr aparmaqdır. Ali təhsil sahəsində potensialın artırılmasına xidmət edən sözügedən layihə çərçivəsində Universitetdə "Mobil tətbiqlər və oyun dizaynı" ixtisası üzrə təhsil alan tələbələr, layihə iştirakçıları və tədris prosesinə cəlb olunan müəllimlər BDU nəzdində müasir Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi nəzdində fəaliyyət göstərən Rəqəmsal Tədqiqatlar laboratoriyasının imkanlarından da yararlanmaqla bilik və bacarıqlarını artırırlar. "MAGnUS" layihəsi çərçivəsində həmçinin, sözügedən laboratoriyanın maddi-texniki bazasının daha da müasirləşməsinə nail olunub. Bununla ölkəmizdə yeni nəsil alimlərin və mütəxəssislərin yetişməsinə töhfə verən, təhsil və elm sahəsində transformativ təkmilləşdürmələr aparılacaq bir təhsil məkanının əsası qoyulub.

Açılış mərasimində çıxış edən Milli Erasmus + Ofisinin rəhbəri Pərviz Bağırov isə qeyd edib ki, yeni açılan belə innovativ laboratoriyaların Azərbaycan xalqına xidmət etməsi böyük sevincdir. Rəqəmsal layihələrin böyük perspektivi olduğunu deyən Pərviz Bağırov BDU-da yaradılan yeni laboratoriyanın digər universitetlər üçün nümunə sayıldığını vurğulayıb.

BDU rektorunun Strateji inkişaf və əlaqələr üzrə müşaviri Əli Nağıyev, BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin İnformasiya texnologiyaları və proqramlaşdırma kafedrasının müdiri Ələkbər Əliyev da çıxışlarında yeni laboratoriyanın üstünlüklərini, praktiki və real tədqiqatlara əsaslandığını, BDU-da rəqəmsallaşma işinə böyük töhfə verəcəyini qeyd ediblər.

# Hüquq fakültəsi Avropa Şurası ilə birgə təlim keçirib

***Mayın 24-də Hüquq fakültəsində Şərq Tərəfdaşlığı ölkələrində Avropa İttifaqı (Aİ) və Avropa Şurasının (AŞ) "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq: Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması" layihəsi çərçivəsində "Avropa Insan Hüquqları Məhkəməsi – Qadınlara qarşı zorakılıq və məişət zorakılığı sahəsində presedent hüququ" mövzusunda tədbir keçirilib.***

Tədbirin açılış mərasimində AŞ-nın Azərbaycandakı ofisinin rəhbəri, səfir Zoltan Hernyes və Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı Zaur Əliyev, layihənin rəhbəri Sandra Veloy Mateu və Avropa İnsan Hüquqları Məhkəməsinin Azərbaycandan olan hakimi Lətif Hüseynov çıxış ediblər.

Tədbiri giriş sözü ilə açan səfir Zoltan Hernyes bildirib ki, "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq (2019-2022): Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması" layihəsinin əsas məqsədi adı çəkilən Konvensiyanın imzalanması və ratifikasiyasının təbliği, eləcə də milli qanunvericiliyin və siyasətin Avropa Şurası standartlarına uyğunlaşdırılması istiqamətində dəstək göstərməkdən ibarətdir. Səfir layihə üzrə tərəfdaş qismində Hüquq fakültəsini görməkdən məmnunluq hissi keçirdiyini bildirib.

Hüquq fakültəsinin dekanı Zaur Əliyev AŞ ilə Azərbaycan arasında təhsil sahəsində əməkdaşlığın zəruriliyini, Azərbaycanın qarşısında götürdüyü öhdəliklələri yerinə yetirdiyini vurğulayıb. Zaur Əliyev layihə çərçivəsində təşkil olunan HELP kurslarına Hüquq fakültəsindən qoşulan müəllimlərin kursu müvəffəqiyyətlə bitirdiyini və sertifikatlarla təltif olunduğunu, 2021/2022-ci tədris ilindən bakalavriat təhsil pilləsində tədris olunması üçün "Məişət zorakılığına qarşı mübarizə" fənninin tədris proqramına daxil edildiyini, magistratura təhsil səviyyəsində "Avropa Məhkəməsinin presedent hüququ" fənninin tədris olunduğunu deyib.

Layihə haqqında təqdimatla çıxış edən Sandra Veloy Mateu insan hüquqlarının ciddi pozuntusu olan qadınlara qarşı zorakılıq və məişət zorakılığına qarşı mübarizəni əhatə edən əsas hüquqi standartlardan biri və hərtərəfli beynəlxalq müqavilə kimi tanınan İstanbul Konvensiyası, onun məzmununa dair məlumatlılığın artırılmasının vacibliyinə diqqət çəkib. Konvensiyanın məqsəd və müddəalarının daha yaxşı başa düşülməsi üçün həyata keçirilmiş və gələcəkdə keçirilməsi nəzərdə tutulan bir sıra tədbirlər haqqında, o cümlədən Azərbaycanın dövlət qurumları ilə üç əsas fəaliyyət sahəsində - qanunvericilik, məlumatlılığın artırılması tədbirləri və dövlət qulluqçularının bacarıqlarının gücləndirilməsi zəminində əməkdaşlıq məsələlərinə toxunub.

Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi, görkəmli hüquqşünas alim Lətif Hüseynov Avropa İnsan Hüquqları Məhkəməsi, onun fəaliyyət mexanizmi, müraciətlərə baxılması kimi məsələlərdən danışıb. "Qadınlara qarşı zorakılıq və məişət zorakılığı - Avropa Insan Hüquqları Məhkəməsinin presedent hüququ" adlanan sessiyada Lətif Hüseynov bu mövzuda məhkəməyə daxil olmuş müraciətlər, onlara baxılması, məhkəmənin qərarı və icrasından bəhs edib. Çıxışında baxılmış işlərdən misallar gətirən Lətif Hüseynov özünün geniş bilik və təcrübələrinə əsaslanan məlumatları tələbələrlə bölüşüb.

Sonda Lətif Hüseynov tələbələrin çoxsaylı suallarını cavablandırıb.

# BDU kollektivi DTX-nin "Şöhrət" muzeyini ziyarət edib

Bakı Dövlət Universitetinin (BDU) rəhbərliyi və professor-müəllim heyəti Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının "Şöhrət" muzeyini ziyarət edib.

BDU kollektivi əvvəlcə Ulu öndər Heydər Əliyevin Akademiyanın ərazisində ucaldılan abidəsi önünə gül dəstələri qoyub, əziz xatirəsini yad ediblər. Sonra "Şöhrət" muzeyində Ümummilli lider Heydər Əliyevin zəngin həyat və fəaliyyətini əks etdirən fotostend və eksponatlarla tanış olublar. "Şöhrət" muzeyinin eksponat və stendlərində olan unikal sənədlər, arxiv materialları dahi şəxsiyyətin şərəfli həyat və fəaliyyətini, xalqımızın tarixində oynadığı misilsiz rolu, o cümlədən təhlükəsizlik orqanlarındakı xidmət dövrü haqqında məlumatları əks etdirir.

Məlumat verilib ki, 2006-cı il mart ayının 27-də "Şöhrət" muzeyinin açılışında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iştirak edib. İndiyədək muzeyi 40 minə yaxın insan ziyarət edib.

BDU-nun rektoru Elçin Babayev Ulu öndər, müasir Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin Universitetin ən böyük məzunu olduğunu bildirib. Qeyd edib ki, dahi liderin şərəfli ömür yolunun öyrənilməsinə böyük ehtiyac var. Rektor həmçinin BDU-nun Heydər Əliyev muzeyi ilə "Şöhrət" muzeyinin, eləcə də DTX-nın Akademiyası ilə BDU-nun müxtəlif fakültələri arasında əməkdaşlıq əlaqələrinin yaradılmasının vacibliyini vurğulayıb.

Sonda BDU-nun rektoru Elçin Babayev Muzeyin "Xatirə kitabı"na ürək sözlərini yazıb və Universitet adından Muzeyin fonduna kitablar hədiyyə edib.

# İki müdrik insan

***Bu il Fəlsəfə kafedrasının professoru Zeynəddin Hacıyevin və dosent Arif Tağıyevin 80 illik yübileyi deyd olunur. 80 yaş insanın müdriklik səviyyəsinə çatdığı, ömür yoluna özü qarşısında hesabat verdiyi bir dövrdür. O ki, qala alim ömrü ola. Bu alim ömrünün səhifələrində ərsəyə gələn dərsliklərin, məqalələrin, yetişdirilən doktorantların, neçə-neçə tələbələrin adları vardır. Bu ömür salnaməsini vərəqlədikcə yəqin ki, həm çətinliklərin, həm müvəffəqiyyətlərin, iz buraxan hadisələrin şahidi olmaq mümkündür.***





Hər iki alimimiz həm də artıq bu gün öz yetişdirmələri və həmkarlarının qəlbində öz izlərini qoymuş şəxsiyyətlərdir. Zeynəddin Camal oğlu Hacıyev 1941-ci ildə Balakən rayonunun Tülü kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra 1958-1960-cı illərdə kolxozda sıravi kolxozçu işləyib. 1960-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsinə daxil olub, 1965-ci ildə oranı fərqlənmə diplomu ilə bitirib. 1965-1969-cu illərdə ADU-nun Fəlsəfə kafedrasında aspirantutaya qəbul olunub. O, professor Həsən Şirəliyevin ilk aspirant olub. 1969-cu ildə “Siyasət ilə əxlaqın qarşılıqlı münasibətləri” mövzusunda namizədlik, 1993-cü ildə “Elmi texniki tərəqqi və kəndin sosial strukturunun dəyişilməsi” mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1969-1981-ci illərdə Azərbaycan Dövlət Universitetinin “Politologiya və sosiologiya” kafedrasında müəllim, baş müəllim və dosent vəzifələrində işləyib. 1982-1987-ci illərdə Gəncə şəhərində fəaliyyət göstərən Azərbaycan Texnologiya İnstitutunda Fəlsəfə kafedrasının müdiri olub. Z.Hacıyev 1988-ci ildən isə Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasında çalışır.

Professor Zeynəddin Hacıyev “Sosial fəlsəfə”, “Fəlsəfə”, “Ontologiya və idrak nəzəriyyəsi”, “Məntiq” adlı dörd dərsliyin, “Kəndin sosial inkişafı” adlı monoqrafiyanın, 60-a qədər məqalənin və tezisin müəllifidir.

Zeynəddin müəllim Fəlsəfə kafedrasında bakalavr pilləsində “Fəlsəfə”, “Ontologiya və idrak nəzəriyyəsi”, “Tarixi şüur və tarixi idrak”, magistratura pilləsində isə “Cəmiyyətin mənəvi həyatı”, “Cəmiyyətin maddi həyatı ”, “Sosial idrakın mahiyyəti və xüsusiyyətləri” fənlərini tədris edir, buraxılış işlərinə və magistr dissertasiyalarına rəhbərlik edir. Professor Z.Hacıyevi tələbələrə tələbkarlığı ilə tanınsa da, bu tələbkarlıq onun həm də onlara qayğısı və humanist münasibətilə müşaiyət olunur.

Zeynəddin Hacıyevin həm də doktorluq işinin mövzusunu əhatə edən “Kəndin sosial inkişafı” adlı monoqrafiyasında müasir Elmi Texniki Tərəqqinin aqrar istehsalın geoloji və bioloji quruluşuna təsiri fonunda, daha dəqiq, bio-texniki inqilab fonunda, kənd əhalisinin strukturunda baş verən dəyişikliklər, kolxozçu kəndlilər ilə fəhlə sinfinin kənd dəstəsi (sovxoz fəhlələri, kənd sənaye fəhlələri, ayrı-ayrı sənayə fəhlələri) arasında sosial fərqlərin silinməsi təhlil olunur. Digər tərəfdən aqrar əməyin xarakteri və məzmununda baş verən irəliləyişlər zəminində kolxozçu kəndlilərin sinif daxili strukturunda baş verən daxili dəyişikliklər araşdırılır.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra sosial fəlsəfənin qarşısında duran, fəlsəfi təhlilə ehtiyacı olan problemlərin sayı çoxaldı. Professor Z. Hacıyev də sosial fəlsəfə sahəsində görkəmli mütəxəssis kimi son illərdə həmin problemlərin tədqiqi ilə məşğul olmuşdur. Zeynəddin Hacıyev sosial strukturun dəyişilməsi, sosial fəlsəfədə mənəvilik, şəxsiyyətin azadlığı problemləri üzrə elmi tədqiqat aparır. XXI əsrin əvvəllərində baş verən trasformasiya prosesləri dəyərlər sisteminə təsir etdiyi kimi, dəyərlər də öz növbəsində siyasi, sosial və iqtisadi həyata və münasibətlərə dəyişdirici təsir etdi. Artıq əvvəlki dəyərlər sistemi müasir reallıqların tələblərinə cavab vermirdi. Zeynəddin müəllimin dəyərlərin sosial, siyasi, iqtisadi həyatdakı dəyişiklərə təsirini tədqiq etməsinin nəticəsi kimi “Keçid dövrü və sosial dəyərlər”, “Azadlığın strukturunda dəyərlər seçiminin rolu”, “Sosial-iqtisadi proseslərdə dəyərlərin rolu” adlı məqalələri yazıldı. Məlumdur ki, müstəqillik qazanıldıqdan sonra ictimai həyatın bütün sferalarında baş verən transformasiya prosesləri sosial struktura da təsirsiz ötüşməmişdir. Bu prosesin təhlili öz əksini professorun “Müasir cəmiyyətin sosial strukturunun dəyişilməsinin əsas meylləri” məqaləsində tapmışdır.

Alimin “Azadlığın strukturunda dəyərlər seçiminin rolu”, “Azadlıq sosial birliklərin və fərdin maraqları kontekstində”, “Azadlıq anlayışının strukturuna dair” məqalələrində isə azadlıq anlayışının strukturu təhlil olunur.

Səkkiz nəfər fəlsəfə üzrə fəlsəfə doktoru yetişdirən Zeynəddin Hacıyev Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitunun nəzdində fəaliyyət göstərən Dissertasiya şurasının sədr müavinidir.

Fəlsəfə kafedrasının digər bir yubilyarı fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Arif İslam oğlu Tağıyev 26 may 1940-cı ildə Ordubad rayonunda anadan olub. 1958-ci ildə orta məktəbi əla qiymətlərlə bitirib. 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin Biologiya fakültəsinə daxil olub, 1970-ci ildə həmin fakültəni əla qiymətlərlə bitirdikdən sonar, 1971-ci ildə BDU-nun Fəlsəfə kafedrasına aspirant qəbul edilib. Professor Fuad Qasımzadənin rəhbərliyi ilə Arif Tağıyev 1975-ci ildə “Dialektik inkişaf prinsipi və biologiyada nəzəri sintez” mövzusunda namizədlik dissertasiyasını müdafiə edib. Arif müəllim 1976-cı ildən Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasının dosentidir.

Dosent A.Tağıyevin 2011-ci ildə “Müasir təbiətşünaslığın konsepsiyaları”, 2014-cü ildə “Antropologiya”, 2018-ci ildə “Fəlsəfə” dərslikləri nəşr olunmuşdur. Arif Tağıyevin “Ontologiya” dərsliyi isə hal-hazırda nəşr olunmaq ərəfəsindədir.

Arif müəllim bakalavr pilləsi səviyyəsində “Ontologiya”, "Fəlsəfə", "Müasir təbiətşünaslığın konsepsiyaları", "Təfəkkür tiplərinin tarixi dinamikası", “Antropologiya”, “Fəlsəfədə insan problem” fənləri üzrə mühazirə və məşğələlər aparır. Arif Tağıyev həm də magistratura səviyyəsində Təbiətşünaslıq fəlsəfəsi ixtisası üzrə dərs deyən aparıcı müəllimlərdən biridir. Onun “Təbiətşünaslığın keçdiyi tarixi yol və paradiqmaları”, “Yerdə həyatın yaranması konsepsiyaları”, “Dünyanın müasir təbii-elmi mənzərəsinin əsas konsepsiyaları” fənlərindən mühazirələri tələbələr tərəfindən maraqla qarşılanır. Arif müəllim uzun illərdir ki, kafedramızda buraxılış işlərinə və magistr dissertasiyalarına rəhbərlik edir. Onun tələbələrə təqdim etdiyi mövzular həmişə öz aktuallığı ilə seçilir.

Arif Tağıyev fəlsəfə ilə təbiətşünaslığın, xüsusilə biologiyanın əlaqələri, eləcə də davamlı iqtisadi inkişaf strategiyası üzrə tədqiqatlar aparır. O, Azərbaycan Respublikasının iqtisadi inkişaf prespektivlərinin araşdırıldığı “Azərbaycan Respublikasının davamlı iqtisadi inkişaf strategiyası haqqında” məqalələrin müəllifidir. Alimi maraqlandıran məsələlərdən biri də dünyanın müasir təbii-elmi mənzərəsidir. O, bu istiqamətdə “Dünyanın təbii-elmi mənzərəsi: metodoloji analiz”, “Dünyanın post-qeyri klassik mənzərəsində qlobal təkamül” kimi məqalələr yazmışdır.

A.Tağıyevin “Antropologiya” dərsliyində çağdaş elmin mühüm və müxtəlif istiqamətlərini özündə birləşdirən bir sahənin - antropologiyanın ən aktual məsələləri izah edilir, həmçinin bu elmin tarixi, predmeti və metodoloji məsələləri, müzakirəsi indi də davam edən antroposoiogenez, yaxud insanın biososial təkamülü, cəmiyyətin sosial və siyasi inkişafının ilkin mərhələləri, eləcə də cəmiyyət tarixinin dövrləşdirilməsinin prinsip və meyarları və s. problemlər öz şərhini tapır. Oxucu bu dərslikdə antropoloji tədqiqatın çox müxtəlif - sosiomədəni antropologiya, psixoloji antropologiya, vizual, kibernetik antropologiya və başqa sahələri ilə tanış olur.

A. Tağıyevin fəaliyyətinin mühüm bir sahəsi də fəlsəfə klassiklərindən Platonun “Dövlət”, Aristotelin “Politika” və “Metafizika”, Hegelin “Ruh fəlsəfəsi”, “Məntiq elmi”, “Hüquq fəlsəfəsi” adlı əsərlərini Azərbaycanda ilk dəfə ana dilimizə çevirməsidir. O, fəlsəfə klassiklərinin tərcümə etdiyi əsərlərinə həm də iri həcmlı şərhlər yazaraq, onları təhlil etmişdir.

Məlumdur ki, Platonun “Dövlət” və Aristotelin “Politika” əsərlərinin orta əsr müsəlman mütəfəkkirlərinin yaradıcılığına da güclü təsiri olmuşdur. Böyük türk filosofu, Şərqdə “İkinci müəllim” adlandırılan Əbu Nəsr əl-Farabi özünün “Fəzilətli şəhər əhalisinin görüşlərinə dair” traktatını, N.Tusi “Əxlaqi-Nasiri” əsərini, Xacə Nizamülmülk Həsən Əli “Siyasətnamə” əsərini məhz Platon və Aristotelin ideyalarından bəhrələnərək yazmışlar. Nizaminin “İsgəndərnaməsi”nə də Platon və Aristotelin siyasi-fəlsəfi ideyalarının təsiri başlanğıcdan sonadək duyulur. Antik filosofların əsərlərini orta əsrlərdə ərəb dilinə tərcümə edən və şərhlər yazan Əl-Farabi, İbn Rüşd, İbn Sina kimi alimlər Qərb və Şərq elmi fikri arasında bir körpü yaratmış, İslam Şərqində fəlsəfənin inkişafına təkan vermişlər.

Mənəvi atalarımızın klassik yunan fəlsəfi irsini yüksək dəyərləndirmələrinə, ondan daha çox bəhrələnmələrinə və bizlərə ərməğan etdikləri əsərləri ilə o zəngin mənəvi mədəniyyəti mənimsəməyi tövsiyə etmələrinə baxmayaraq, bu əsərlərin ana dilimizə çevrilməsi kimi çətin bir iş uzun müddət diqqətdən kənarda qalmışdı. Bu şərəfli işin öhdəsindən məhz Arif Tağıyev gəlmişdir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra marksist metodologiyadan uzaqlaşma meylləri nəticəsində fəlsəfi, hüquqi, filoloji sahələrdə tədqiqatlar artıq marksisit ideologiyadan kənar aparılmağa başlandı. Buna görə Arif müəllim də Hegelin fəlsəfi sistemini, eləcə də onun “Hüquq fəlsəfəsi”ni marksist metodologiyası əsasında dəyərləndirmənin həqiqəti heç də tam əks etdirməyəcəyi qənaətinə gələrək, Hegelin “Hüquq fəlsəfəsi”nin şərhində də “Ruh fəlsəfəsi” və “Məntiq elmi” əsərlərinin Azərbaycan dilində nəşrində istifadə etdiyi şərh üsulundan, başlıca olaraq Hegelin özündən və onun hüquq və dövlət fəlsəfəsində qaldırdığı problemlərdən, prinsiplərdən, xüsusilə də onun özünün işləyib hazırladığı və sözü gedən əsərdə daha da inkişaf etdirdiyi dialektik metoddan istifadə edir. Arif müəllim əminliklə bildirir və tövsiyə edir ki, dialektika təfəkkürün ən kəskin silahıdır. Bu silahı (dialektikanı) mənimsəmiş təfəkkürü yenmək mümkün deyil.

A.Tağıyev söhbətlərində “Ruhun özünə səyahəti” adlı kitabı üzərində işləyərək başa çatdırmaq arzusunda olduğunu dilə gətirir.

Bu gün Azərbaycanda fəlsəfə elminin inkişaf etməsində və bu sahədə kadrların hazırlanmasında böyük xidmətləri olan Zeynəddin Hacıyevi və Arif Tağıyevi yubileyləri münasibətilə təbrik edirik. Onların fəlsəfi yaradıcılıqları, humanizm və zəhmətlə yoğrulmuş həyat yolları bu gün əhatələrində olduqları gənclik üçün bir nümunədir. Sevinməliyik ki, belə insanlar bizimlə çiyin-çiyinə çalışır, öz məsləhətlərini bizdən əsirgəmirlər.

***Kəmalə Pənahova***
*Fəlsəfə kafedrasının müdiri*

# "Şuşanın istixana qazlarından azad yaşıl iqtisadi inkişaf perspektivləri"

**Mayın 13-də *Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti (MHX) Bakı Dövlət Universitetində (BDU) "Şuşa ili" çərçivəsində "Şuşanın istixana qazlarından azad yaşıl iqtisadi inkişaf perspektivləri" mövzusunda tədbir keçirib.***

Tədbirin açılışında çıxış edən BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar mərkəzinin direktoru Mais Süleymanov qeyd edib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuz 44 günlük Vətən müharibəsində şanlı Zəfərə imza ataraq, əzəli torpaqlarımızı işğaldan azad edib. Hazırda Qarabağda sürətli bərpa-quruculuq işləri aparılır. Bu prosesə dövlət qurumları ilə yanaşı, elm və təhsil müəssisələri də töhfə verir. Mais Süleymanov "Şuşa ili" çərçivəsində həyata keçirilən tədbirin böyük əhəmiyyətə malik olduğunu qeyd edib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva da tədbirin keçirilməsində əməkdaşlığa görə BDU rəhbərliyinə təşəkkür edib.

Xidmət rəisi iqlim dəyişmələri, onun nəticələri və bununla bağlı ölkəmizin götürdüyü öhdəliklərin yerinə yetirilməsi, meşə sahələrinin genişləndirilməsi, bərpa olunan enerji mənbələrindən istifadənin artırılması barədə iştirakçılara məlumat verib.

Eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə hidrometeoroloji müşahidə şəbəkəsinin bərpası, "netto sıfır emissiya" və "yaşıl enerji" zonasının yaradılmasının ölkənin ekoloji təhlükəsizliyi və dayanıqlı inkişafına töhfə verəcəyini vurğulayıb.

Tədbirdə ölkəmizin COP 26 çərçivəsində iqlim dəyişikliyinin təsirinin azaldılması səylərini dəstəkləmək məqsədilə bir sıra beynəlxalq təşəbbüslərə qoşulduğu da diqqətə çatdırılıb.

Sonda Şuşa şəhərinin ölkəmizin mədəniyyət paytaxtı olmaqla yanaşı, ekoloji təmiz, yaşıl iqtisadi inkişaf mərkəzi kimi dünyanın ən cəlbedici məkanı, elmi, mədəni mərkəzinə çevrilməsi üçün ardıcıl effektiv fəaliyyətin həyata keçirildiyi vurğulanıb, təqdimatlar nümayiş etdirilib.

Tədbir BDU-nun professor-müəllim heyəti və tələbələrin fəal iştirakı ilə sual-cavab sessiyası formatında davam edib.

Tədbirin sonunda Xidmətin rəhbərliyi tərəfindən xüsusi tərtib olunmuş hava sertifikatları və təşəkkürnamələr təqdim olunub.

# Böyük hədəflər kiçik addımlardan başlayır

***Bakı Dövlət Universitetində təhsil alan gənclərin əksəriyyəti öz fəallıqları ilə seçilən tələbələrdir. Onların tələbəlik illərində gördükləri faydalı işləri universitetimiz hər zaman dəstəkləyir.***

BMİ fakültəsinin II kurs tələbəsi Əzizə Əlizadə və III kurs tələbəsi Neymət Ağamalıyevin birlikdə çalışdıqları layihələr də gənclər və universitet tərəfindən maraqla qarşılanmışdır.

***- Əvvəlcə, üzərində işlədiyiniz layihələrdən danışaq. Nə layihələrdir? Nəyə əsaslanır?***

Neymət: Üzərində işlədiyimiz layihə, əsasən, sülhsevər Azərbaycan gənclərinin bu mövzu ətrafında biliyinin artırılmasıdır. Dünyanın müxtəlif yerlərində baş verən müharibələr və müxtəlif sahədə təhsil alan gənclərimizin gələcəkdə daha sülhsevər mövqedən çıxış etməsini qoruyacaq. Bu layihənin müxtəlif mərhələlərində iştirak edən gənclərimiz daha çox məlumata sahib olacaq və komanda işi, araşdırma qabiliyyəti və bir çox sahədə inkişaf edəcəklər.

***- Həmin ideyalar ağlınıza necə gəldi və ilk nədən başladınız?***

Əzizə: Neymət və mən sosial aktiv gənclər olduğumuz üçün bir çox seminarlarda, təlimlərdə, təcrübə proqramlarında, o cümlədən, layihələrdə iştirak etmişik. Bundan əlavə, hər ikimiz "Global Peace Chain"də Azərbaycanın gənc səfirləri seçilmişik. Layihə ideyasının əsas məğzi buradan yarandı. Bizim əsas məqsədimiz öz bilik, bacarıq və təcrübələrimizi gənc nəsillərlə bölüşüb,onların həm şəxsi inkişaflarının, həm də sülh və dünyagörüşlə bağlı məlumatların artırılmasına yaxından dəstək olmaqdır. Bütün bu sadalananlardan yola çıxaraq "Gənclərə və universitetimizə necə fayda verə bilərik?" deyə düşündük və ortaya bu layihə fikri çıxdı. Daha sonra bu layihə üzərində işləyib universitet daxili təşkilatlarla bölüşdük.

***- Oxuduğunuz fakültənin işlərinizdəki rolu nə qədərdir?***

Neymət: Belə ki, təhsil aldığımız fakültə, əsasən, qlobal yönümlü olduğu üçün düşündük ki, uğurlu bir layihə ilə məhz Azərbaycan gənclərinin gələcəkdə nə qədər sülhsevər olmasını göstərək. Təhsil aldığımız ixtisaslarda müxtəlif müəllimlərdən bu sahədə kömək aldıq və keçdiyimiz dərslərdən öyrəndiyimiz biliklərlə layihəni ərsəyə gətirdik.

***- Universitet rəhbərliyinin işlərinizlə tanış olduqda reaksiyaları nə oldu?***

Əzizə: Layihəni hazır formaya gətirdikdən sonra ilk Beynəlxalq Münasibətlər və İqtisadiyyat fakültəsi ilə bölüşdük. Həmin fakültənin dekan müavini İkram Cəbrayılov bu məsələdə bizə yaxından dəstək oldu. Daha sonra, layihəni BMİ fakültəsinin müəllimləri ilə paylaşdıq. Ondan sonra əlaqələrimiz genişləndi. Digər fakültələrə və təşkilatlara da layihəmizi nümayiş etdirib məlumatlandırdıq. Universitetdən və daxili təşkilatlardan müsbət rəylər aldıq. Onların fikrincə, bu layihə gənclərin maarifləndirilməsi üçün nümunəvi hərəkətdir. Bizə bu layihənin həyata keçirilməsi üçün maraqlı olduqlarını, hər daim dəstək olacaqlarını, problem yarandığı təqdirdə onlarla əlaqə saxlayıb problemləri aradan qaldıra biləcəklərini dedilər.

***- Qarşıdakı illər üçün başqa nə planlarınız var ?***

Əzizə: Böyük hədəflər kiçik addımlardan başlayır. Bunun üçün ilkin hədəflərimiz məhz universitetimizin tələbələri üçün, yazdığımız layihələr də universitetdaxili layihələrdir.

***Neymət:*** Gələcəkdə ölkəmizi dünya arenasında yetərincə sülhsevər və dövlətçilik ənələrinə sadiq bir şəkildə təmsil etməyi düşünürük.

**Əzizə:** Bundan əlavə, gənclərin öz fərdi inkişaflarına müsbət təsir etmək istəyirik. Onlar bu sahədə düzgün məlumatlar əldə etməlidilər ki, gələcəkdə sonrakı nəsillərə müəyyən bilikləri aşılaya bilsinlər.

***Tələbələrimizə fəaliyyətlərində uğurlar arzu edirik!***

***Sevinc İbrahimzadə***
*Jurnalistika fakültəsinin*
*III kurs tələbəsi*

# "Azərbaycan mediası yeni müstəvidə" mövzusunda elmi konfrans keçirilib

***Mayın 11-də Jurnalistika fakültəsində görkəmli ziyalı, professor Nəsir Əhmədlinin 80 illik yubileyinə həsr olunmuş "Azərbaycan mediası yeni müstəvidə" mövzusunda respublika Elmi konfransı keçirilib.***

Tədbirin moderatoru Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri, dosent Aynur Nəsirova qonaqları salamlayaraq konfransı açıq elan edib, günün əhəmiyyətini diqqətə çatdırıb.

Daha sonra Tədris tele-radio studiyasının (BDU TV) görkəmli alimin həyat və fəaliyyətinə həsr etdiyi videoçarx nümayiş olunub.

Konfransda ölkə mediasının tanınmış nümayəndələri, BDU-nun və Jurnalistika fakültəsinin professor-müəllim heyəti iştirak edib.






"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov, "ARB24" telekanalının sədri Radik İsmayılov, BDU-nun professorları Rüfət Rüstəmov, Cahangir Məmmədli, Həmid Vəliyev, Allahverdi Məmmədli, Qulu Məhərrəmli, Sabir Məmmədli, Ramiz Əsgər, Folklor İnstitutunun professoru Əli Şamil, "ASAN xidmət"- in İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyev, Jurnalistika fakültəsinin elmi işlər üzrə dekan müavini Sevinc Əliyeva, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İnformasiya təminatı və sənədlərlə iş şöbəsinin müdiri Yadigar Məmmədli, Mərkəzin aparıcı məsləhətçisi Araz Qurbanov, yazıçı-jurnalist İlqar Rəsul, "525-ci qəzet"in redaktoru Yusif Rzayev, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Mirzəyev, Cəlalə Nəzəroğlu, Əməkdar jurnalist Namiq Əhmədov, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının dosenti Təranə Mahmudova çıxış edərək Nəsir müəllimin elm və təhsilimizə, yüksək ixtisaslı jurnalist kadrların hazırlanmasına töhfələr verdiyini, zəngin təcrübəsi ilə tələbə-gənclərə dəstək olduğunu vurğulayıblar. Professor Nəsir Əhmədlinin Azərbaycan dilinin saflığının qorunmasında əvəzsiz xidmətlər göstərdiyini bildiriblər.

# Almaniyanın Mannheim Cərrahlıq Klinikasının direktoru BDU-da

**Mayın 11-də Almaniyanın Heydelberq Universitetinin Mannheim Cərrahlıq Klinikasının direktoru, professor Kristof Reissfelder və Klinikanın əməkdaşı, tədqiqatçı alim, həkim Vüqar Yaqublu Bakı Dövlət Universitetinin Biologiya, Fizika və Kimya fakültələrinin bir qrup əməkdaşı ilə görüşüb.**



Görüşdə məqsəd prioritet olan sahələrdə elmi mübadilə proqramı çərçivəsində tədqiqatların aparılması üçün istedadlı gənclərdən ibarət tədqiqat qrupunun yaradılmasıdır. Görüşdə Almaniyanın Heydelberq Universiteti ilə Bakı Dövlət Universiteti və Azərbaycan Tibb Universiteti arasında əməkdaşlıq çərçivəsində magistratura, doktorantura səviyyələrində gənclərin tədqiqat qruplarına cəlb edilməsi, birgə fəaliyyət nəticəsində görülə biləcək işlərin planlaşdırılması, ölkə üçün prioritet olan tədqiqatların aparılması mexanizmlərinin qurulması məsələləri müzakirə edilib.

Müzakirələrdən sonra professor Kristof Reissfelder tələbələrə ustad dərsi keçib. O, gənclərin ölkələrarası elmi mübadilə proqramlarına cəlb edilməsinin yolları barədə danışıb. Daha sonra Mannheim klinikasının laboratoriyaları haqqında gənclərə məlumat verib, tədqiqat layihələrində işləmə prinsiplərini izah edib, alınmış nəticələrin analizi və nəşri haqqında tövsiyələrini bölüşüb.

Görüşün sonunda Kristof Reissfelder tələbələrin suallarını cavablandırıb.

# Pekin Xarici Dillər Universitetinin kafedra müdiri BDU-da elmi seminar keçib

***Mayın 4-də BDU-nun Filologiya fakültəsində "Türkoloji araşdırmalar" ETL-in və Türkoloji dərnəyin təşkilatçılığı ilə Pekin Xarici Dillər Universitetinin Asiya fakültəsinin Azərbaycan dili kafedrasının müdiri, Çin İctimai Elmlər Akademiyasının dəvətli alimi, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyevin "Qədim Çin salnamələrində türk xalqları haqqında məlumatlar və İpək yolu üzərində Türk-Çin dillərinin çarpazlaşma prosesi" adlı elmi seminarı keçirilib.***



Tədbiri giriş sözü ilə açan Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov Aqşin Əliyevin fəaliyyəti haqqında məlumat verərək, onun azərbaycanşünaslığın Çində təbliği istiqamətində gördüyü işlərdən, əldə etdiyi uğurlardan danışıb, fakültənin dəvətini qəbul etdiyi üçün qonağa təşəkkürünü bildirib.

Sonra Aqşin Əliyev eyniadlı məruzə ilə çıxış edib. Aqşin Əliyev qədim Çin mənbələrində türk xalqlarının tarixi, mədəniyyəti, adət-ənənələri və dilləri haqqındakı mövzulardan bəhs edən bəzi kitablar və onların türkologiya elmi üçün əhəmiyyətindən söz açıb, Dunhuanq şəhərində Moqao mağaralarından tapılmış türkdilli əlyazmalar barədə geniş məlumat verib.

Çində yaşayan türk xalqlarının müasir vəziyyətinə, türkologiyanın inkişafı istiqamətində görülən işlərə toxunan məruzəçi hazırda çoxsaylı Çin mənbələrində türklər haqqındakı məlumatların öyrənilməsinə və həmin əlyazmaların türkoloqlar tərəfindən araşdırılıb elmi ictimaiyyətə təqdim olunmasına ciddi ehtiyac duyulduğunu diqqətə çatdırıb. Bildirib ki, bu baxımdan humanitar sahədə tədqiqat aparan mütəxəssislərin, xüsusilə gənclərin digər xarici dillərlə yanaşı, Çin dilinin öyrənilməsinə də maraq göstərməsi mühüm məsələlərdən biridir. Ona görə də gələcəkdə bu sahəyə marağı olan gənc tədqiqatçılara geniş imkanların yaradılması və universitetlərarası əlaqələrin gücləndirilməsi təşəbbüslərinə dəstək verilməlidir.

Aqşin Əliyev həmçinin İpək yolu üzərində çarpazlaşan dillərdən və bu problemin tədqiqinin dilçilik elmi üçün əhəmiyyətindən bəhs edərək, Çin və türk dillərində müxtəlif səviyyələrdə, xüsusilə leksik bazada lüğəvi vahidlərin mübadiləsinə diqqət çəkib, Çin dilində türk, türk dilində Çin mənşəli leksik vahidlərin işlənmə arealı və imkanlarını tarixi aspektdə təhlil edib.

Sonra məruzəçiyə suallar ünvanlanıb, mövzu ilə bağlı çıxışlar edilib.

"Türkoloji araşdırmalar" ETL-in elmi işçisi Pərvin Eyvazov məruzədə qeyd olunan bəzi məqamlara toxunaraq, vaxtilə dünya elminin əsas mərkəzlərindən olan Çində və türk dünyasında türkoloji araşdırmaların qarşılıqlı mübadilə imkanlarının genişləndirilməsini vacib cəhətlərdən biri hesab edib. Bildirib ki, Azərbaycan dilinin və ədəbiyyatının Çində təbliği işinə dəstək verilməklə yanaşı, türklər haqqında mühüm məlumatları özündə əks etdirən Çin mənbələrinə azərbaycanlı türkoloqların da diqqətini çəkmək bu sahənin prioritet istiqamətlərindən biridir.

Sonda Filologiya fakültəsinin elmi işlər üzrə dekan müavini Mehriban Əlizadə məruzəçinin çıxışını yüksək qiymətləndirib və fakültə dekanı adından ona təşəkkürnamə təqdim edib.

# Polşanın Poznan Universitetinin professoru BDU-da elmi seminar keçib



***Mayın 4-də Coğrafiya fakültəsinin İqtisadi və sosial coğrafiya kafedrasının təşkilatçılığı ilə Polşanın Poznan Universitetinin professoru Sezari Modrinin elmi seminarı keçirilib.***

Elmi seminarda Sezari Modri "Polşada iqtisadi-coğrafi tədqiqatlar" mövzusunda təqdimatla çıxış edib.

Məruzəçi Polşada Coğrafiya elminin yaranması və inkişafı tarixindən bəhs edib. Tələbələrə Polşa universitetlərinə qəbul qaydaları, təhsilin müddəti və keyfiyyət göstəriciləri barədə məlumat verib. Qeyd edib ki, Polşa universitetlərində İqtisadi coğrafiya elminin 8 qolu var.

Poznan Universiteti ilə BDU-nun gələcək əməkdaşlığının da uğurlu olacağını bildirən professor Polşanın aparıcı elmi jurnallarında Azərbaycandan olan tədqiqatçıların məqalələrinin yer aldığını bildirib.

Elmi seminar iştirakçıların suallarının cavablandırılması ilə başa çatıb.

# Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində ustad dərsi

***Mayın 5-də Bakı Dövlət Universitetinin Beynəlxaq münasibətlər və İqtisadiyyat fakültəsi, İqtisadiyyat kafedrasının təşkilatçılığı ilə "Bazar iqtisadiyyatı şəraitində torpaq və maddi-texniki resurslardan istifadənin səmərəliliyi" mövzusunda növbəti ustad dərsi keçirilib.***



Ustad dərsinin mövzusu üzrə məruzəçi, İqtisadiyyat kafedrasının müdiri, iqtisad elmləri doktotu, professor Vahid Abbasov çıxış edərək, daxili və xarici amillərin təsiri şəraitində aqrar sahədə mövcud inkişaf meyllərinə dair qısa xülasələr edərək, kənd təsərrüfatında istehsal fəaliyyətinin səmərəliliyinin təmin edilməsində torpaq resurslarından istifadənin əhəmiyyəti, əsas istehsal vasitəsi kimi torpaq və maddi-texniki resurslardan istifadənin rolu, xüsusiyyətləri və istifadə şəraitlərinə, torpaq və maddi-texniki resursların səmərəli istidə olunmasının təmərgüzləşmə, kooperasiyalaşma və inteqrasiyalaşma kimi təşkilati-iqtisadi problemlərinə dair fikirlər açıqlayıb. Kənd təsərrüfatının inkişaf xüsusiyyətləri nəzərə alınaraq, torpaqlardan istifadənin regional və sahəvi aspektləri, torpaqlardan və əsas fondlardan istifadədə mülkiyyət münasibətləri, resursların qiymətləndirilməsi, renta və gəlirlilik məsələləri, torpaq və maddi-texniki resurslardan istifadənin səmərəliliyinin artırılması, resurslar bazarının formalaşmasında istehsal və xidmət infrastrukturlarından, lizinqdən istifadə məsələləri nəzərdən keçirilib.

Keçirilən ustad dərsində mövzu ilə əlaqədar suallar verilib və müzakirələr aparılıb.

# Biologiya fakültəsində "ART-MOTİV" layihəsi təqdim olunub

*Mayın 16-da Biologiya fakültəsində Botanika və bitki fiziologiyası kafedrasının dosenti Sevda Tahirlinin müəllifi olduğu "ART-MOTİV" layihəsi təqdim olunub.*



Layihədə 4 tanınmış dünya klassikinin (Qabriel Qarsia Markes "Vida məktubu", Mahatma Qandi "Dua", Antuan de Sent-Ekzüperi "Dua", "Avraam Linkolnun oğlunun müəlliminə məktubu") bəşəriyyətə ünvanladığı məktubların mətni yer alıb. Əvvəlcə layihə müəllifinin həmin məktublar əsasında hazırladığı videoçarxlara baxılıb.

Qeyd edilib ki, layihənin hazırlanmasında məqsəd insanların, xüsusən gənclərin həyatını müsbət istiqamətə doğru dəyişməyə cəhd etmək, yaxın olduğu üçün adiləşən və hətta bəzən yox kimi görünən məqamlara bir daha diqqət çəkməkdir. Məruzəçi bildirib ki, stress, intihar, zorakılıq, depressiyaların həyatın adi davranışına çevrilməsi təhlükəsi cəmiyyətin bu məqamlardan xilas yollarını düşünməsini tələb edir. "ART-MOTİV" layihəsi gəncləri bu xilas yollarını düşünməyə çağırır.

Təqdimatın sonunda fakültənin dekanı Afət Məmmədova layihənin çox güclü mesajlar verdiyini vurğulayıb, gənclərə milli-mənəvi dəyərləri saxlamaqla daim inkişafda olmağı tövsiyə edib.

Layihə tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

# BDU tələbələri uşaq sığınacağını ziyarət ediblər



*Mayın 4-də Biologiya fakültəsinin təşkilatçılığı ilə bir qrup tələbə Ramazan bayramı münasibətilə Azərbaycan Uşaqlar Birliyi - Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzini ziyarət edib.*

Ziyarətin əsas məqsədi Ramazan bayramında valideyn himayəsindən məhrum olmuş və zorakılığa məruz qalmış uşaqları sevindirmək, onlara dəstək olmaq və bayramların daha yaddaqalan etmək olub.

BDU tələbələri uşaqlara müxtəlif hədiyyələr təqdim edib, onlarla birlikdə maraqlı oyunlar oynayıb, qayğıya ehtiyacı olan uşaqlar üçün gözəl bayram əhvalı yaradıblar.

# Sabaha açılan arzular

***Müdriklərdən biri deyib ki, "kimin ürəyi arzu və ümidlərlə doludursa, o insanın gələcəyi də işıqlı olar". Çünki həqiqətən də ömrümüzü mənalandıran, həyatımızın məqsədinə çevrilən arzulardır. Yaşından asılı olmayaraq hər bir şəxs öz xəyal dünyasına səyahət edir və orada arzuları ilə məqsədləri arasında körpü yaradır. Motivasiyanın əsas mənbəyi məhz hədəflərdir. İrəliləmək üçün yeni hədəflər yaradırıq.***

Hələ orta məktəb illərindən ən böyük arzum idi - Bakı Dövlət Universitetinin tələbəsi olmaq, ali təhsil həyatına məhz bu universitetdə başlamaq. Xəyalını qurduğumuz universitet bizlər üçün bilik xəzinəsi, arzularımızı bir yerə toplayıb məqsədə çevirən ali məktəbdir. Universitet məktəbi bitirən şagirdlərə yeni yollar açan, onların bir tələbəyə çevrilərək həm savadlı, həm də cəmiyyətə layiqli şəxs kimi yetişməsi üçün açılan bir qapıdır. Bu qapının açarı isə zəhmət və iradədir. Tanrıma şükürlər olsun ki, xəyalımdakı müqəddəs elm ocağının qapısını uğurla açmaq üç il əvvəl mənə də qismət oldu və halhazırda da ali təhsilimi Bakı Dövlət Universitetində alıram.

Bakı Dövlət Universiteti - yarandığı gündən etibarən ölkəmizin ilk universitet statusu daşıyan və yüksək təhsil keyfiyyəti ilə flaqmana çevrilən təhsil ocağıdır. Bugünün tələbəsini sabahın yüksək ixtisaslı mütəxəssisinə çevirməyi qarşısına prioritet məqsəd qoyan universitetimizdə biz tələbələrin bilik, təcrübə qazanması üçün gözəl şərait yaradılıb. Həm savadlı, həm də mehriban müəllim kollektivi ilə əhatə olunmaq, yüksək keyfiyyətli dərs proseslərinin iştirakçısı olmaq BDU-nun qarşıma çıxardığı bir şans idi. Düşünürəm ki, arzular məqsədlərə, məqsədlərimiz isə reallığa çevrilərək həyatımızda dönüş nöqtəsi yaradır.

BDU neçə-neçə tələbənin arzusunu reallaşdıran, sağlam düşüncəli şəxsləri formalaşdırmaqla cəmiyyətə ötürən təhsil ocağıdır. Hələ BDU-dakı ilk vaxtlarımdan tələbəlik illərinin nə qədər gözəl, bir o qədər də məsuliyyətli dövr olduğunu görürdüm. Artıq 3-cü kurs tələbəsiyəm. Keçən iki il təhsildəki nailiyyətlərimə də öz müsbət təsirini göstərir. Universitetimizdə dərs proqramının mənimsənilməsi üçün müasir texnologiyalardan istifadə edilir və yeni metodikalar tətbiq olunur. Bir-birindən maraqlı layihələrin hazırlanması və bizlərin iştirakı üçün lazımi şəraitin yaradılması, tələbələrin inkişafı üçün keçirilən müsabiqələr bizlərin həyatında işığa çevrilmiş olur. Universitetimizin rəhbərliyi dərs proseslərininin keyfiyyətli olmasına xüsusi diqqət yetirir, istər tələbə kollektivi, istərsə də müəllim kollektivi arasında qarşılıqlı hörmət prinsipinin gözlənilməsi və düzgün sosial mühitin davamlı olması üçün uğurlu addımlar atır.

Verdiyimiz qərarlar yolumuzda bir cığır açır. Həyatda diləyi, arzusu olanlar daim irəliləməyə çalışırlar. Xəyallar heç zaman bizi tərk etmir: ən çətin anlarımızda belə xəyallar qurur və gələcəyə olan inamımızı, ümidimizi artırırıq. Bizim dünənki zəhmətimiz bugünə istiqamətlənir və uğura çevrilir. Və əminliklə qeyd edə bilərəm ki, ali təhsillə bağlı verdiyim ilk uğurlu qərarım BDU-da təhsil almağı məqsədə çevirməyim və bunun üçün çox çalışmağım oldu. Məktəb illəri ilə vidalaşıb yeni mühitlə tanışlıq, həyatımızı bəzəyən xəyalları reallığa çevirmənin əslində bizdən asılı olduğunu görmək və bütün çətinliklərə baxmayaraq ancaq irəli addımlamağı öyrənmək universitetimin mənə verdiyi ən dəyərli tövhədir.

İllər keçəcək. Biz tələbələr ixtisasımız üzrə müəyyən yerlərdə fəaliyyət göstərəcək və arzuladığımız pillələrdə daha bir addım atmış olacağıq. Günlər yerini illərə verəcək. Həyatımız sonsuz ümmanlara yelkən açan gəmiyə çevriləcək. Bu xəyalları məqsədlərə çatdıran gəmidir. Aldığımız təhsil fırtınalarda belə istiqamətini qoruyub saxlayan gəmi, ümidlərimiz isə bu gəminin yelkəni olacaq. Həyatda bəzən çətin sınaqlardan keçirik, sonda isə çalışqanlığımız sayəsində həyat özü hədiyyəsini göndərir və zəhmətimizin bəhrəsini görürük. Universitetimiz bizim üçün ümidlər məskənidir. Bakı Dövlət Universitetinin həyatıma verdiyi məna, burada əldə etdiyim təhsil, formalaşdırdığım dünyagörüşü tələbəlik illərimin ən dəyərli hədiyyəsi olaraq qəlbimdə yerini daim qoruyub saxlayacaqdır.

***Siminbər Məmmədova***
Sosial elmlər və psixologiya Fakültəsinin
III kurs tələbəsi

# 200 mindən çox elektron kitabdan ödənişsiz istifadə imkanı

*Universitetin Elmi Kitabxanası professor-müəllim heyəti, gənc tədqiqatçıları və oxucularına 200000-dən çox elektron kitabı əhatə edən EBSCO eBook Akademik Kolleksiyasından istifadə imkanı təqdim edir. Kolleksiyadan istifadə 2022-ci il may ayından etibarən heç bir ödəniş tələb edilmədən 3 ay müddətində davam edəcək. Elektron kitablar qeyri-məhdud sayda istifadəçi üçün əlçatandır və yeni kitablar mütəmadi olaraq kolleksiyaya əlavə olunur.*

Aparıcı nəşriyyatların kitablarından ibarət kolleksiyanın rahat interfeysi onu istifadəçilər üçün əsas elektron resurs bazasına çevirir.

Kolleksiyadan istifadə edə bilmək üçün Elmi Kitabxananın elektron kitabxana səhifəsindən və ya EBSCOHost elektron platformasından <https://web.s.ebscohost.com/ehost/search/advanced?vid=1&sid=d37afe92-daab-4db1-ba7e-7790bb88ee8e%40redis> linki vasitəsilə eBook Academic Collection Trial bölməsinə daxil olmaq lazımdır.

BDU ərazisindən kənarda bsuni istifadəçi adı, Research123! şifrəsi vasitəsilə EBSCO eBook Akademik Kolleksiyasından istifadə etmək mümkündür.

# BDU-da elmi informasiyanın idarə olunmasında məlumat bazalarının roluna dair seminar

Bakı Dövlət Universitetinin (BDU) Kitabxanaçılıq-informasiya fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə "Elmi informasiyanın idarə olunmasında məlumat bazalarının rolu" mövzusunda elmi seminar keçirilib. Seminarda BDU-nun Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının magistrantı Yusif Əsədullayev mövzu ilə bağlı məruzə edib.

Gənc tədqiqatçı elmi informasiyanın idarə olunmasında məlumat bazalarının arxivləndirmə və indeksləndirmə fəaliyyətindən bəhs edib. Bildirib ki, hazırda müxtəlif qiymətləndirmə meyarlarının meydana gəlməsi və tətbiqi nəticəsində elmi informasiyanın idarə olunması, eyni zamanda səmərəliliyinin təhlilinin aparılması mümkündür. Məruzədə qeyd olunub ki, hazırda elmi fəaliyyət haqqında informasiyanın toplanmasının və idarə olunmasının elmin populyarlaşdırılmasında vasitəyə çevrilməsi üçün bir sıra platformalar meydana gəlib. Nüfuzlu elmi platformalara çıxış imkanı elmi tədqiqat fəaliyyətlərinin informasiya təminatının əhəmiyyətli dərəcədə yaxşılaşmasına, aparılan araşdırmaların beynəlxalq standartlara uyğunlaşmasına və alınmış mühüm nəticələrin akademik mühitdə yayılmasına səbəb olur. Məruzədə həmçinin "Web of Science" platforması, onun üstünlük və imkanları, eyni zamanda elmi informasiyanın idarə olunmasında mühüm rol oynayan digər elmmetrik bazalar haqqında informasiyalar da diqqətə çatdırılıb.

# Ömər Faiq Nemanzadənin varisləri ilə görüş

***Mayın 5-də Jurnalistika fakültəsində Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, publisist, pedaqoq, "Qeyrət" mətbəəsinin və "Molla Nəsrəddin" jurnalının həmtəsisçisi Ömər Faiq Nemanzadənin nəvəsi Fuad Pepinov və nəticəsi Ülviyyə Pepinova ilə görüş keçirilib.***



Jurnalistika fakültəsinin dekan müavini Sevinc Əliyeva böyük ədib və publisist Ömər Faiqin milli mətbuatımızın formalaşmasındakı rolundan danışıb, daha sonra qonaqlar haqqında qısa məlumat verib.

Ömər Faiq Nemanzadənin xaricdə yaşayan varisləri Şuşada keçirilən Zəfər qurultayında iştirak etmək məqsədilə Bakıya gəliblər. Fuad Pepinov 2017-ci ilə qədər Rusiya Elmlər Akademiyasının İnformasiya Problemləri İnstitutunda şöbə müdiri işləyib. Ömər Faiqin nəticəsi Ülviyyə Pepinova Böyük Britaniyada Azərbaycan icmasının fəal üzvüdür, hazırda Böyük Britaniya-Azərbaycan Ticarət Palatasında işləyir.

Qonaqlar böyük ustad haqqında ailə xatirələrini bölüşüblər. Repressiya qurbanı olan Ömər Faiqin ən böyük arzusunun milli universitetlərin açılması olduğunu qeyd edən qonaqlar Azərbaycanın ilk ali təhsil ocağında olmaqlarından qürur duyduqlarını söyləyiblər.

Jurnalistika fakültəsinin Milli mətbuat tarixi kafedrasının müdiri Cahangir Məmmədli belə görüşlərin tələbələr üçün faydasından bəhs edib, Ömər Faiq Nemanzadənin, o cümlədən klassiklərimizin irsinin öyrənilməsinin vacibliyindən danışıb. Professor Nəsiman Yaqublu Ömər Faiq Nemanzadənin milli mətbuatımızın inkişafına verdiyi töhfələrlə bağlı geniş məruzə edib, onun həm də görkəmli ictimai xadim kimi milli dövlətçilik ideyası aspektindən fəaliyyətinə nəzər salıb.

Tanınmış jurnalist Ülkər Hüseynova tədbirdə çıxış edərək, Ömər Faiq Nemanzadənin 150 illik yubileyinin yaxınlaşdığını vurğulayıb, həyatını Azərbaycanda milli mətbuatın yaradılmasına, türk xalqlarının maariflənməsinə həsr edən bu şəxsiyyətin daim yaddaşlarda yaşayacağını söyləyib.

# Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyevin BDU tələbələri ilə görüşü

## Görüş nazirliyin "Mədəni gənclik" layihəsi çərçivəsində keçirilib

***Mayın 6-da Bakı Dövlət Universitetində mədəniyyət nazirinin birinci müavini Elnur Əliyevlə tələbələrin görüşü olub. Görüş nazirliyin "Mədəni gənclik" layihəsi çərçivəsində keçirilib.***




Görüşdə çıxış edən BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev qeyd edib ki, ali təhsil müəssisələrinin vəzifəsi yüksəkixtisaslı kadrlar hazırlamaqla yanaşı, həm də tələbələrin dünyagörüşlərini genişləndirmələri, onların öz yaradıcılıqlarını inkişaf etdirmələri, ictimai fəallıqlarını artırmaları üçün şərait yaratmaqdır. Bu baxımdan BDU-da müntəzəm olaraq sosial layihələr həyata keçirilir, tələbələrin asudə vaxtlarının səmərəli təşkilinə böyük önəm verilir.



Prorektor bildirib ki, son zamanlar Mədəniyyət Nazirliyi bir sıra genişmiqyaslı sosial layihələr həyata keçirir. Gənclərin inkişafına yönəlmiş "Mədəni gənclik" layihəsi də bu qəbildəndir.

Görüşdə geniş təqdimat ilə çıxış edən mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev tələbəlik dövrünün insanın şəxsiyyət kimi yetişməsi üçün unikal dövr olduğunu qeyd edib. Bildirib ki, şəxsiyyətin yetişməsi və kamilləşməsi üçün ən böyük addımlar məhz bu dövrdə atılır.

Nazir müavini Azərbaycan mədəniyyəti və ədəbiyyat nümunələrinin qorunub saxlanılması və mədəniyyətimizin beynəlxalq mədəniyyətlərarası dialoqa verdiyi töhfələrdən bəhs edib. Klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılığına diqqət çəkib.

Nazirin birinci müavini gəncləri rəqabətədavamlı kadr kimi formalaşmağa, fərqli düşüncə qabiliyyətini inkişaf etdirməyə, elmlə yanaşı, milli mədəniyyətimizi də dərindən öyrənməyə çağırıb.

Daha sonra Mədəniyyət Nazirliyi və BDU-nun birgə həyata keçirəcəyi proqram haqqında məlumat verilib. Proqram çərçivəsində tələbələrdən ibarət 300 nəfərlik bir qrup seçiləcək və həmin tələbələr iki ay ərzində həftədə iki dəfə olmaqla nazirliyin xətti ilə keçirilən bir tamaşa və bir konsert proqramına biletlər əldə edəcəklər. Biletlərin ödənişini Universitet və Nazirlik həyata keçirəcək. Tələbələrə tamaşa və konsertlər haqqında təqdimat ediləcək, yaradıcı heyət haqqında ətraflı məlumat veriləcək. Tamaşa və konsertlərin nümayişindən sonra müzakirələr təşkil olunacaq. Proqramın məqsədi tələbələrin teatr və konsertlərə marağının artırılmasıdır.

Daha sonra nazirliyin nümayəndələri könüllü olaraq proqrama qoşulacaq tələbələrlə görüşüb, onların müvafiq suallarını cavablandırıblar.

# Banklarda audit işinin təşkilinə dair təlim keçirilib

***Mayın 13-də Bakı Dövlət Universiteti və Azərbaycan Beynəlxalq Bankının birgə təşkilatçılığı ilə "Banklarda audit işinin təşkili" mövzusunda tələbələr üçün növbəti təlim keçirilib.***

Tədbiri giriş sözü ilə açan BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun müdiri Vasif Həsənov bank sektorunda sürətli inkişafın mövcud əmək bazarının tələblərinə uyğun olaraq tələbə və məzunların karyera imkanlarını daha da genişləndirdiyini qeyd edib.

Bankın İşə qəbul şöbəsinin müdiri Orxan Əliyev öz karyera həyatında ABB-nin tutduğu xüsusi yeri qeyd edib və tələbələr üçün banklarda mövcud olan imkanlardan danışıb.

Bankın Daxili audit departamentinin meneceri Nicat Qasımov banklarda audit işinin təşkili prinsiplərini açıqlayıb.

Görüşdə BDU təhsilalanlarının əmək bazarının yeni ixtisaslara adaptasiyası, yumşaq bacarıqlarının yaxşılaşdırılması məqsədilə bank tərəfindən müxtəlif istiqamətlərdə təcrübə mübadiləsi sessiyalarının keçirilməsi, istehsalat və ya könüllü təcrübə proqramlarının təşkili məsələləri də müzakirə olunub.

Təlim tələbələr tərəfindən maraqla qarşılanıb. Sonda tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

# BDU və "Paşa Bank"ın birgə təşkilatçılığı ilə tələbələr üçün təlim



***Mayın 13-də Bakı Dövlət Universiteti və "Paşa Bank"ın birgə təşkilatçılığı ilə "Data elmi - nəzəriyyədən təcrübəyə" mövzusunda tələbələr üçün növbəti təlim keçirilib.***

Tədbiri giriş sözü ilə açan BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun müdiri Vasif Həsənov data elmi ilə bağlı yeniliklərin tələbələrin gələcək karyera imkanlarına töhfə verəcəyini bildirib. Böyük məlumatların emal edilməsinin gələcəyin trendi olduğunu qeyd edən Vasif Həsənov tələbələrə bu kimi təlimlərdə iştirakın vacibliyini xatırladıb.

Sonra "Paşa Bank"ın Data elmi şöbəsinin müdiri İlker Kurtuluş mövzu ilə bağlı təlimə başlayıb. Data elmi haqqında geniş məlumat verən İlker Kurtuluş bu sahənin əmək bazarında yeni olduğunu bildirərək, tələbələrin özlərini bu istiqamətdə inkişaf etdirmələrini tövsiyə edib.

Görüşdə BDU təhsilalanlarının əmək bazarının yeni ixtisaslara adaptasiyası, yumşaq bacarıqlarının yaxşılaşdırılması məqsədilə bank tərəfindən müxtəlif istiqamətlərdə təcrübə mübadiləsi sessiyalarının keçirilməsi, istehsalat və ya könüllü təcrübə proqramlarının təşkili məsələləri də müzakirə olunub. Sonda tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

# Tələbələrin "Gələcəyin alimləri" adlı VII elmi konfransı

***Mayın 5-də Fizika fakültəsində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş Tələbələrin "Gələcəyin alimləri" adlı VII elmi konfransı keçirilib.***

BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar mərkəzinin direktoru Mais Süleymanov tələbə elmi konfransının keçirilməsinin gələcək elmi tədqiqatçıların yetişməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Fakültə dekanı Bəxtiyar Paşayev qeyd edib ki, konfransa 100-ə yaxın tezis təqdim olunub, onların içərisindən 91-i seçilərək konfrans materiallarına daxil edilib. Bəxtiyar Paşayev üç məruzənin plenar iclasda, qalan işlərin isə bölmələrdə dinlənildəcəyini nəzərə çatdırıb.

Plenar iclasda Fizika fakültəsinin II kurs tələbəsi Nərmin Qocayeva "Akustik rezonanslar və nitq siqnallarında rezonans tezlikləri" (elmi rəhbər Lətif Əliyev), II kurs tələbəsi Nigar Məmmədova "İmproving the performance of the triboelectric nanogenerator (TENG) by using microstructured nylon" (elmi rəhbər Orxan Güləhmədov), IV kurs tələbəsi Şahanə Baxşıyeva "BF CYG simbiotik ulduzun parlaqlıq əyrisində periodik dəyişmələr" (elmi rəhbər Xıdır Mikayılov) mövzularında məruzə ediblər. Hər üç məruzə maraqla qarşılanıb.

Konfransın işi bölmələrdə davam etdirilib. "Nəzəri fizika və astrofizika" bölməsində 11, "İstilik fizikası və molekulyar fizika" bölməsində 22, "Bərk cisimlər fizikası" bölməsində 31, "Fizikanın tədrisi metodikası" bölməsində 22 məruzə dinlənilib. Tələbələrin fizikanın aktual problemlərini əhatə edən tədqiqat işləri professor-müəllim heyəti tərəfindən yüksək qiymətləndirilib.

Konfransın materiallarının toplu şəklində çap olunması qərara alınıb.

# BDU tələbələri Biyan Sənaye Parkında

***Bakı Dövlət Universitetinin Biologiya fakültəsi nəzəriyyənin sənayeyə tətbiqi istiqamətini daim prioritet götürür və tələbələrin sənaye müəssisələrinə silsilə səfərlərini təşkil edir.***

Bu istiqamətdə növbəti səfər Ağdaş rayonunda yerləşən Biyan Sənaye Parkına olub.

Fakültənin Botanika və bitki fiziologiyası kafedrasının əməkdaşları Kəmalə Əsədova və Fidan Məmmədovanın rəhbərliyi ilə II kurs tələbələri Biyan Sənaye Parkında təcrübə keçiblər.



Əvvəlcə Biyan Sənaye Parkının yaradılması və fəaliyyəti barədə film nümayiş etdirilib. Sonra tələbələr biyan plantasiyasında əkilən biyan və digər dərman bitkiləri barədə məlumatlandırılıblar. Onlar Biyan Sənaye Parkının nəzdindəki Biyan tədarükü və emalı zavodunda həyata keçirilən emal prosesi ilə yaxından tanış olublar. Biyan kökü həm mexaniki üsulla, həm də əllə seçilir, təmizlənir, yuyulur, müxtəlif formada və ölçüdə doğranır, qurudulur və qablaşdırılır.

Biyan Sənaye Parkının nəzdində fəaliyyət göstərən Bitki ekstraktı və sirop zavodunda bioloji fəallığa malik qida əlavələri istehsal olunur. İstehsal olunan müalicəvi şərbətlərin öskürək, iltihab, qrip və zökəm əleyhinə, bəlğəmgətirici, immuniteti, hemoqlobini artıran, sinir sistemini sakitləşdirən təsirlərə malik olması barədə tələbələrə məlumat verilib. Məhsulların başlıca üstünlükləri bitki mənşəli olması, xammalın ekoloji təmizliyi, tərkibində kimyəvi maddələrin - konservant, dadverici və rəngvericilərin olmamasıdır.

Təcrübə rəhbəri Kəmalə Əsədova tələbələrə biyan və digər dərman bitkilərinin bioekoloji xüsusiyyətləri, tərkibi və tibbi əhəmiyyəti barədə ətraflı məlumat verib.

Səfər dərs zamanı qazanılmış nəzəri biliklərin təcrübədə tətbiqi, tədrisin təcrübəyə inteqrasiyası baxımından məhsuldar olub.

# BDU tələbələri "Bakı Marafonu-2022"də iştirak ediblər

***Mayın 16-da Bakı Dövlət Universitetinin tələbələri Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən "Bakı Marafonu-2022"də iştirak ediblər.***

"Küləyə qalib gəl" şüarı altında keçirilən marafona 700-dən çox BDU tələbəsi qatılıb. 21 kilometrlik məsafəni əhatə edən marafonda tələbələrimiz aktiv iştirak edərək, finiş xəttinə çatıblar. Finiş xəttini ilk minlikdə keçən tələbələr "Bakı Marafonu-2022"nin xüsusi medalları ilə təltif olunublar. 2016-cı ildən təşkil edilən Bakı Marafonu idmanın inkişafına dəstək, sağlam həyat tərzinin təbliği məqsədi daşıyır. Beşinci dəfə baş tutan marafonda 15 minədək iştirakçı yarışıb.



# "Gənc istedadlar" liseyinin şagirdinin böyük uğuru




***Mayın 16-da Bakı Dövlət Universitetinin nəzdində "Gənc istedadlar" liseyinin XI sinif şagirdi Nəriman Şirinli Özbəkistanda kimya fənni üzrə 56-cı Beynəlxalq Mendeleyev Olimpiadasında böyük uğura imza atıb.***

Mayın 15-də Özbəkistanda kimya fənni üzrə 56-cı Beynəlxalq Mendeleyev Olimpiadası təşkil olunub.

Elm müsabiqəsində iştirak edən məktəblilərimiz uğurlu nəticə əldə ediblər.

Belə ki, BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin XI sinif şagirdi Nəriman Şirinli gümüş, Gəncə şəhər Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi Məhsəti Piriyeva və Astara rayonu Z.Ə.Əhmədzadə adına Pensər kənd 2 nömrəli tam orta məktəb-liseyin XI sinif şagirdi Salman Hüseynov bürünc medala layiq görülüblər.

Şagirdimizi təbrik edir, uğurlar arzulayırıq!

# Gədəbəy qızıl yataqlarının yerləşmə qanunauyğunluqlarına dair ustad dərsi keçirilib

***Geologiya fakültəsində "Azerbaijan İnternational Mining Company Limited" şirkətinin Geoloji-kəşfiyyat şöbəsinin müdiri, yer elmləri üzrə fəlsəfə doktoru Anar Vəliyevin iştirakı ilə "Gədəbəy filiz rayonunun qızıl yataqlarının yerləşmə qanunauyğunluqları, əmələgəlmə şəraiti və perspektivliyi" mövzusunda ustad dərsi keçirilib.***

İclası giriş sözü ilə açan fakültə dekanı Mamoy Mansurov bildirib ki, son dövrlər Universitetdə elmi tədbirlərin keçirilməsi intensiv xarakter alıb. Geologiya fakültəsində də mütəmadi olaraq elmi-praktiki konfrans, seminar və ustad dərslər keçirilir. Bu tədbirlərin keçirilməsi və elmi nəticələrin müzakirə olunması tələbələrin gələcək elmi fəaliyyətlərini stimullaşdıran vacib amillərdən biridir.

Məruzəçi Anar Vəliyev "Azerbaijan İnternational Mining Company Limited" şirkətinin Gədəbəy filiz yatağında fəaliyyət planı haqqında məlumat verib. Qeyd edib ki, şirkətin əsas məqsədi sənaye əhəmiyyətli yeni qızıl, gümüş və mis yataqların aşkarlanması, istismara verilməsidir.

# BDU-nun əcnəbi tələbələrinin təqdimatında "Azad diyar - Şuşam mənim" adlı ədəbi-bədii tədbir

**Mayın 24-də Bakı Dövlət Universitetinin hazırlıq sektorunun əcnəbi tələbələrinin təqdimatında "Azad diyar - Şuşam mənim" adlı ədəbi-bədii tədbir keçirilib.**

Tədbirdə qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci ili "Şuşa ili" elan etməsi barədə sərəncamını bütün Azərbaycan xalqı sevinclə qarşılayıb. Çünki Şuşa hər bir azərbaycanlının 30 illik həsrəti, Azərbaycan mədəniyyətinin beşiyidir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuz Şuşanı və digər işğal altında olan torpaqlarımızı azad edərək, bu həsrətə son qoyub. Hazırda azad Qarabağımızda üçrəngli bayrağımız qürurla dalğalanır.



Daha sonra BDU-nun Hazırlıq sektorunun türkiyəli, çinli, qazaxıstanlı tələbələri Qarabağa, Şuşaya, türk dünyasının birliyinə həsr olunmuş şeirlər, mahnılar səsləndirib, müxtəlif dram əsərlərindən səhnəciklər göstəriblər.

Tədbir tələbələrin alqışları ilə qarşılanıb.

# BDU-nun komandası mini-futbol üzrə çempionatın ikincisi olub

Bakı Dövlət Universitetinin komandası çempionatda ikinci yeri tutub.



Mayın 7-də Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş ali təhsil müəssisələrinin tələbələri arasında mini-futbol üzrə çempionata yekun vurulub. Bakı Dövlət Universitetinin komandası çempionatda ikinci yeri tutub. Oyunlardan sonra çempionatın bağlanış mərasimi keçirilib.

Tədbirdə təhsil nazirinin müavini Firudin Qurbanov, gənclər və idman nazirinin müavini Fərhad Hacıyev, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə, AFFA-nın İcraiyyə Komitəsinin üzvləri, veteran futbolçular və digər rəsmi şəxslər iştirak edib.

Bağlanış mərasimində çıxış edən təhsil nazirinin müavini, Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin prezidenti, AFFA-nın İcraiyyə komitəsinin üzvü Firudin Qurbanov Ulu öndər Heydər Əliyevin Azərbaycan gəncliyinə, idman sahəsinin inkişafına göstərdiyi diqqət və qayğıdan danışıb, əldə olunan uğurlardan söz açıb. Nazir müavini bu çempionatın tələbələr arasında mini-futbolun təbliği və kütləviliyində, gənc nəslin sağlamlığının təmin edilməsində, onların vətənpərvərlik hisslərinin tərbiyəsində xüsusi əhəmiyyət daşıdığını qeyd edib.

Sonda yarışlarda fərqlənən 3 tələbə futbolçu "Ən yaxşı qapıçı", "Ən yaxşı müdafiəçi" və "Ən yaxşı hücumçu" nominasiyaları üzrə xüsusi mükafatla təltif olunub, I, II, III yerləri tutan komandalar medal, kubok və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

Qeyd edək ki, çempionat Təhsil Nazirliyi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Azərbaycan Tələbə Futbol Federasiyası İctimai birliyi və "Azfar Qroup" QSC-nin dəstəyi ilə təşkil olunub. Yarışlarda 16 ali təhsil müəssisəsinin komandası iştirak edib.

# Azad Şuşada əsrə bərabər bir gün

Şuşa azad olunan andan ağlımda tək bir şey vardı: ilk fürsətdə o cənnət yurdu ziyarət etmək. Şükür, arzum gerçəkləşir. Heydər Əliyev Fondunun və Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə Şuşada keçirilən 1-ci Beynəlxalq Kulinariya Festivalının iştirakçısıyam… Əslində sözlər acizdir yaşadıqlarımı ifadə etməyə. Amma yazmaya da bilmirəm…

Artıq vədə yetişib, Şuşaya yola düşürük. Çox həyəcanlıyam. Saatları, dəqiqələri, saniyələri sanki iplə özümə tərəf çəkirəm. Yol hardasa 7-8 saat çəkir, amma buna baxmayaraq, pəncərə kənarından gözümü ayırmıram, çünki yolboyu heç nəyi qaçırtmaq istəmirəm. Artıq saatlar keçir və Şuşadayam. Müzəffər Ali Baş Komandanımızın sərkərdəliyi ilə şanlı ordumuzun azad etdiyi Şuşada! Maşın dayanır, ayaqlarımız Şuşanın qutsal torpağına dəyir. Havası çox möhtəşəmdir, saatlarla bir nöqtəyə baxıb ciyərimə çəkmək istəyirəm Şuşanın havasını. Festival keçirilən məkana yaxınlaşıram. Beynəlxalq festivalda qardaş Türkiyədən, Almaniya, Avstriya, Çin, Fransa, Gürcüstan, İndoneziya, İran, İsrail, İtaliya, Malayziya və Yaponiyadan təşrif buyurmuş kulinarlar ölkələrinin təamları ilə bizləri tanış edirlər.

…İçimdən Şuşa qalasını görmək hissi inanılmaz enerji ilə keçir. Vaxt itirmədən qaça-qaça qalaya tərəf yollanıram. Çatan kimi o ucalıqda hayqırmaq istəyirəm. Bütün dünyanın səsimi eşitməsini, xoşbəxtliyimi görməsini istəyirəm. Bu əzəmətli qala divarlarına üçrəngli bayrağımızı sancan qazilərimizi ehtiramla yad edirəm, şəhidlərimizin ruhu qarşısında baş əyirəm. Burada qürurla dalğalanan üçrəngli bayrağımızla çoxlu şəkillər çəkdirirəm və cənab Prezidentimizin "Əziz Şuşa, biz qayıtmışıq" kəlamını uca səslə səsləndirirəm. Şuşa qalasının yuxarı hissəsinə qalxıb ətrafı seyr edirəm. Olduqca füsunkardır. Sonra bütün Şuşanı gəzmək, bağrıma basmaq istəyirəm. Bulağından su içirəm - dirilik suyu kimi. Aparılan abadlıq, quruculuq işlərini gördükcə fərəhimdən qəlbim dağa dönür.




Anidən saatıma baxıram: cəmi yarım saatım qalıb bu gözəl məkanda. Kədərlənirəm müvəqqəti ayrılığa. Amma Şuşada artıq əbədi yaşayacağımızı düşünüb özümə gəlirəm. "Yenə dönəcəyəm onsuz da" deyib, mütləq Cıdır düzünü görmək arzumu da gerçəkləşdirirəm. İnanılmaz dərəcədə əvəz olunmayan mənzərə ilə qarşı-qarşıyam. Sözlərim gücsüzdür bu mənzərəni qələmə almağa…

Şuşadan müvəqqəti ayrılıram. Oradan götürdüyüm daş parçasını ovcumun içinə sıxmışam. Vətən daşı kimi, həm də qalib ölkənin vətəndaşı kimi! Yolboyu Ümummilli liderimiz Heydər Əliyevin, şəhidlərimizin ruhuna dualar oxuyuram. Ümummilli liderimizin siyasətini layiqincə davam etdirən, müqəddəs ata vəsiyyətini yerinə yetirən Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin Prezidenti olduğu ölkənin vətəndaşı olduğuma görə fəxr edirəm. Vətənimə layiq övlad olmaq üçün əlimdən gələni edəcəyimə söz verirəm və qürur, fəxarət hissi ilə Ulu Öndərimizin kəlamını deyirəm: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!".

***Fidan Həsənova***
*Kitabxanaçılıq-informasiya fakültəsinin tələbəsi*

# "Heydər Əliyev: Böyük ömrün anları" adlı kitab və foto sərgisi



***Mayın 10-da Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında Ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə "Heydər Əliyev: Böyük ömrün anları" adlı kitab və fotolardan ibarət sərgi təşkil edilib.***

Sərgidə Ümummilli lider Heydər Əliyevin Azərbaycan tarixindəki və beynəlxalq arenadakı rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs edən 100-dən çox kitab və 50-yə yaxın fotoşəkil nümayiş etdirilib.

# "Nə? Harada? Nə Zaman?" intellektual yarışı üzrə BDU kuboku



***Mayın 5-də Bakı Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-ci ildönümünə həsr olunmuş "Sən elə bir zirvəsən..." adlı "Nə? Harada? Nə Zaman?" intellektual yarışı üzrə Universitet kuboku keçirilib.***

Yarış Dövlət himninin səsləndirilməsi və Ulu öndər Heydər Əliyevin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Kimya fakültəsinin dekan müavini Taleh Qəhrəmanov çıxış edərək Azərbaycanda həyata keçirilən gənclər, təhsil və elm siyasətinin əsasının Ümummilli lider tərəfindən qoyulduğunu vurğulayıb. Qeyd edib ki, bu siyasət hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan gəncləri təhsil və elm sahəsində ildən-ilə daha yüksək nəticələr əldə edirlər. Yarışın layihə rəhbəri, Kimya fakültəsinin Tələbə Gənclər Təşkilatının sədri Əli Qədirli yarışda iştirak edən komandaları elan edib və onlara uğurlar arzulayıb.

Yarışda BDU-nun fakültələrindən 17 komanda qələbə uğrunda mübarizə aparıb. İntellektual oyun 3 tur üzrə 36 sualdan ibarət olub. Yarışda I yeri Jurnalistika fakültəsindən "İsa Taralov", II yeri Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsindən "Winx club", I yeri isə Kimya fakültəsindən "Morning Star" komandaları qazanıb.

Yarışın sonunda qalib komandalar kubok və medallarla təltif olunub.

**Buraxılışa məsul:**
Afaq Sadıqova

**Redaksiya heyəti:**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Allahverdi Məmmədli
Xatirə Hüseynova
Samir Mirzəyev

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.
**Çapa imzalanıb:** 31.05 .2022
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:**
(+994 12) 538 42 08